# AÇILIŞ VƏ QAPANIŞ ÇALIŞMALARI



Təlim seminarlarınızda effektiv və yaddaqalan açılış və qapanışlar üçün tematik çalışmalar

**Alan İvans və Pol Tizzard**

"Mükəmməl təlimin temp və tonunu müəyyən etmək, öyrənməyə əlverişli vəziyyət yaratmaq üçün praktik, uyğunlaşdırıla bilən ideyalar tapa biləcəyiniz əla mənbə".

**Qrem Vatson, "CIPD Training" şirkətində müvəqqəti rəhbər**

**Kitablar seriyası barədə deyilən xoş sözlər:**

"İdarəetmə kitabları" seriyası mənə dərin təsir bağışlayıb. İdarəetmə mövzusu ilə yenicə tanış olmağa başlayan biri kimi, kitabların çox yaxşı tərtib edildiyini, dəqiq və etibarlı olduğunu düşünürəm”.

# AÇILIŞ VƏ QAPANIŞ ÇALIŞMALARI

First published as the Openers and Closers Pocketbook by Paul Tizzard and Alan Evans. (c) Paul Tizzard and Alan Evans 2005.
Azerbaijani translation published by arrangement with Management Pocketbooks Ltd.




The contents of this electronic book (text and graphics) are protected by international copyright law. All rights reserved.

The copying, reproduction, duplication, storage in a retrieval system, distribution (including by email, fax or other electronic means), publication, modification or transmission of the book are STRICTLY PROHIBITED unless otherwise agreed in writing between the purchaser/licensee and Management Pocketbooks.

Depending on the terms of your purchase/licence, you may be entitled to print parts of this electronic book for your personal use only. Multiple printing/photocopying is STRICTLY PROHIBITED unless otherwise agreed in writing between the purchaser and Management Pocketbooks.

If you are in any doubt about the permitted use of this electronic book, or believe that it has come into your possession by means that contravene this copyright notice, please contact us.

**MANAGEMENT POCKETBOOKS**

Wild's Yard, The Dean,
Alresford, Hampshire
SO24 9BQ UK

Tel: +44 (0)1962 735573
Fax: +44 (0)1962 733637
sales@pocketbook.co.uk
www.pocketbook.co.uk

Azerbaijani translation published by arrangement with Management Pocketbooks Ltd.

# MÜNDƏRİCAT




**YARLIQLAR** 9
İkinəfərlik müsahibələrin sonunda istifadə üçün əlavə suallar



**ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI** 13
Riskli!; Vaxt qrafiki; "Mən" kartı; Təyyarə əyləncəsi; Alın; Lüğət; Mənim kimi jurnal




**"BUM!" EFFEKTLƏRİ** 35
Kurslarınızı effektlə açmaq və qapamaq üçün "bum!" effektləri




**TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALARDAN – METAFOR, ANALOGİYA VƏ DİALOQDAN İSTİFADƏ** 41
Müxtəlif sessiyaların tonunu müəyyən etmək üçün analogiya və hekayələr



**FİLTRLƏR** 55
İçki və kartlar; Təməl qayda vədi; Bilik axtarışı



**MÖVZUYA GİRİŞ ÇALIŞMALARI** 63
Qətiyyətlilik (Dörd heyvan, Plastilin hisslər); Komandalar (Fiqurlar); Yeni rəhbər (Broşürlər); Vaxtın idarə edilməsi (Siyahılar); Təqdimat bacarıqları (Camaşırxana, "ABCÇ"); Kouçinq (Yüngül atletika, 80/20); Ünsiyyət (Axmaq bir sual verin); Müxtəliflik (Fotorobot); Təlimçilərin təlimi (Salamlama, Jonqlyor); Keyfiyyət (Hər şeydən üstündür); Dinləmə bacarıqları (Musiqi kimi, zövqümü oxşayır); Belbin (Gəlin gəzintiyə çıxaq)



**"NÖVBƏTİ ADDIM" QAPANIŞ ÇALIŞMALARI** 109
Kursun sonunda tədbirlər planının təsirinin gücləndirilməsi üçün 8 çalışma



**ƏHVALİ-RUHİYYƏ YOXLAMALARI** 117
Mənə bu qədər yaxın dayanmayın; Köynəkdə əhvali-ruhiyyə; Hisslərin ört-basdır edilməsi; 10 ballıq şkala ilə qiymət



**ÖZ BUZQIRMA ÇALIŞMALARINIZI YAZIN** 123

# PİTER HANİ TƏRƏFİNDƏN ÖN SÖZ

Həyatımın neçə gününün müxtəlif kursları idarə etməklə keçdiyini hesablamaq istəməzdim. Bunun səbəbi xüsusi bir peşmanlıq hissi keçirməyim deyil, sadəcə, belə bir hesab aparmağım heç bir faydalı məqsədə xidmət etməz (hətta neçə günün qaldığı ilə bağlı ağrılı düşüncələrə təkan verə bilər!).

İdarə etdiyim bütün kursların iki ortaq xüsusiyyəti var idi: çoxsaylı başlanğıc və sonlar. Faktiki başlanğıc və sondan əlavə, hər bir sessiyanın, hər bir günün, hər səhərin, günortanın və axşamın başlanğıcı ilə sonu vardı. Hər bir başlanğıc qalan hissənin tonunu müəyyən etdiyinə görə mühüm əhəmiyyət daşıyırdı. Hər bir son olduqca vacib idi, çünki cümlənin sonundakı nöqtə kimi, hər şeyi yekunlaşdırırdı. Kursun yaratdığı müvəqqəti sığınacaqdan real həyata keçiddən xəbər verdiyinə görə kursun faktiki sonunun da əhəmiyyətli dərəcədə vacib olduğunu deməyə ehtiyac yoxdur.

Beləliklə, başlanğıc və sonlar ciddi qəbul edilməlidir. Onlar vacibdir və hər bir kursda sayları çoxdur. Bu kitabı oxuduqdan sonra ağlınızda bağlanğıc və sonların vacibliyinə, mənalı başlanğıc və sonların yaradılması üçün vaxt sərf etməyə dəyəcəyinə dair şübhəniz qalmayacaq.

Kitabdakı çoxsaylı ideyaların parlaqlığı ilə yanaşı, müəlliflərin açılış və ya qapanış çalışmaları ilə kurs məzmunu arasında güclü əlaqələrin qurulmasını təşviq etmələri xüsusilə xoşuma gəlir. Əlaqəsiz çalışmaları hər kəs düşünüb tapa bilər. Əsas məsələ onları öyrənilən məzmuna uyğunlaşdırmaqdır.

Həmçinin materialın mənimsənilib özününküləşdirilməsi təklifini də alqışlayıram. Başqaların materiallarını başqa birinin sözlərini söylənən aktyor kimi ötürməkdə hər zaman çətinlik çəkmişəm. Təcrübəmə əsasən, bir ideyanın toxumunu uyğunlaşdırıb dəyişdirmək daha yaxşıdır. Bu kitab məhz bunun üçün geniş imkanlar yaradır.

Dr Piter Hani
Dekabr, 2004

GİRİŞ

# FƏLSƏFƏMİZ VƏ YANAŞMAMIZ

"Açılış və qapanış çalışmaları" kitabı sizi salamlayır. Bu kitab sizə kurslarınızı, kurslar daxilində sessiyalarınızı açmaq və qapamaq üçün yararlana biləcəyiniz orijinal, sürətli ideya və çalışmaları təqdim edir.

Bu kitab günləri çox məşğul keçən təlimçilər tərəfindən düşünülərək yazılıb. Hər bir açılış və ya qapanış çalışması xüsusi olaraq qrupun enerjisini artırmaq, onu dərhal mövzu haqqında düşünməyə təşviq etmək üçün nəzərdə tutulub.

Fikrimizcə, bütün təlim sessiyaları yaddaqalan olmalı, mahiyyəti parlaq formada ötürməlidir. Həmçinin belə hesab edirik ki, buzqırma çalışmaları idarə etdiyiniz kursun mövzusu ilə əlaqəli olmalıdır. Beləliklə, insanlara bir-birini tanımaq və enerjilərini yüksəltməkdə yardım etməklə kifayətlənməyəcək, həm də onları kursun özü haqqında düşünməyə təşviq edəcək, beləcə, daha sürətli öyrənə biləcəksiniz. O cümlədən bunu da qeyd etmək də vacibdir ki, bu ideyaları işləmək istədiyiniz qaydaya uyğunlaşdıraraq özününküləşdirməyinizi istəyirik.

# DÜZGÜN AÇILIŞ VƏ QAPANIŞ ÇALIŞMALARININ TAPILMASI

Bu kitaba daxil olan çalışmalar ya ümumi xarakterlidir, yəni hər hansı kursda istifadə edilə bilər, məsələn, etimadlı münasibətlərin formalaşdırılması üçün buzqırma çalışmaları, ya da müəyyən mövzu üçün tövsiyə edilir, məsələn, "bum" effektləri və mövzuya giriş çalışmaları.

Açılış və qapanış fəaliyyəltəri aşağıdakı kateqoriyalara bölünür:

- kurs çalışmalarının planlaşdırılmasının başladılması;
- etibarlı münasibətlərin formalaşdırılması üçün çalışmalar;
- açılış və qapanış çalışmaları üçün "bum" effektləri (təsirli hekayə, metafor və analogiyaların kombinasiyası);
- qısa, enerjili çalışmalar;
- ab-havanı yoxlamaq üçün çalışmalar.

Tövsiyələrin çoxundan sessiyaları açmaq və ya qapamaq üçün istifadə edilə bilər. Kurslarınıza ən çox hansının uyğun gələcəyini müəyyənləşdirməyi öz öhdənizə buraxırıq.

Qısa zaman ərzində sürətlə istifadə olunması nəzərdə tutulduğuna görə çalışmalar üçün gərəkli müddəti göstərməmişik. Onlarla işləyərkən qrupların yaxşı reaksiya verdiyi halda, müddəti uzada bilərsiniz.

# QISASI...

**Açılış** çalışmalarımız sizə aşağıdakıları yerinə yetirməkdə kömək edəcək:

- sadəcə, buzları əritmək;
- mövzuya maraq oyandırmaq;
- hər ikisini etmək (həmçinin əylənməkdə).

**Qapanış** çalışmalarınız sizə aşağıdakıları yerinə yetirməkdə kömək edəcək:

- kursu fərqli üsullarla bitirmək və fəaliyyət vədləri almaqda;
- mövzunu daha yaddaqalan formada təkrar nəzərdən keçirməkdə!



## Əylənin və təlim iştirakçılarının mümkün qədər tez öyrənməsinə nail olun!

Məsuliyyətdən imtina. Bildiyimiz qədərilə, bütün bu açılış və qapanış çalışmaları orijinaldır. Başqa materialla hər hansı bənzərliyə yol verilməsi halları tamamilə təsadüfidir.



# YARLIQLAR



# YARLIQ NƏDİR?

Yarlıqlardan təlimçilər arasında "ikinəfərlik müsahibə" adı ilə tanınan üsulu tamamlamaq üçün istifadə edirik. Bu üsula kurs təqdimatının aşağı enerjili, aşağı riskli üsulu kimi tərif verilir. Demək olar ki, hər zaman bu üsulla başlayırıq, çünki kursun əvvəllində iştirakçıların nə qədər təlaşlı ola biləcəyindən xəbərdarıq. Öyrənmək bir yana, kimsə sizi dinləməyə başlamamışdan əvvəl etibarlı münasibətlərin formalaşdırılmasının vacib olduğuna inanırıq.

**İkinəfərlik müsahibə üsulu**
Belə deyə bilərsiniz: "İkinəfərlik qrup daxilində flipçartdakı suallara cavab verməklə bir-birinizi təqdim edin. On dəqiqə sonra bir-birinizi qrupun qalan hissəsinə tədim edin". Nümunə suallar aşağıda göstərilir. Yarlıq bütövlükdə prosedura qeyri-adilik toxunuşu edən son sualdır.

**Suallar:**
1. Kimsiniz?
2. Harada işləyirsiniz/nə edirsiniz?
3. Bu gün kursdan gözlədiyiniz nədir?
4. **Yarlıq (nümunələr üçün növbəti səhifəyə baxın).**

YARLIQLAR

# NÜMUNƏLƏR



Sadə dillə desək, yarlıqlar birbaşa sual vermədən iştirakçıların maraq dairələrini açıqlamaları üçün əyləncəli üsuldur. Aşağıdakı seçmələr konkret kurslarla əlaqəli deyil. Yarlıq suallarını kursun məzmunu ilə əlaqələndirməyi tövsiyə edirik, bu halda, daha böyük təsirə nail olacaqsınız.

| | |
|---|---|
| **Rekordçular!** | *Zaman/pul/gümrahlıq məhdudiyyətləri olmasaydı, hansı rekordu qırmaq istəyərdiniz?* |
| **İxtiralar** | *Sizcə, ən böyük ixtira hansıdır? Nə üçün?* |
| **Tarix** | *Tarixin hansı dövründə yaşamaq istərdiniz? Səbəbini bildirin.* |

## YARLIQLAR

# NÜMUNƏLƏR



| | |
|---|---|
| **Serial** | *Hansı serial ulduzu olmaq istərdiniz?*<br>*Yaxud: Hansı serialda özünüzü oynamaq istərdiniz?*<br>*Rolunuz hansı olardı? Nə deyərdiniz, nə edərdiniz?* |
| **"Mr. Men"** | *Şəxsiyyətinizi ən yaxşı əks etdirdiyini düşündüyünüz bir kişi və ya gənc qadın obrazı seçin. Səbəbini bildirin.* |
| **Daşıyıcı** | *Nəqliyyat növü olsaydınız, hansı olardınız?* |
| **Üç şey**<br>*(daha ümumi)* | *Kursdan əldə etmək istədiyiniz üç nəticəni sıralayın.*<br>*Kursda başqalarına verə biləcəyiniz üç təklifi sıralayın.*<br>*Özünüz haqqında bu kursla bu və ya digər dərəcədə əlaqəli olan üç faktı qeyd edin.* |



# ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI

## ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI



# GİRİŞ

Bu bölmənin məqsədi iştirakçıların bir-biri ilə məqsədyönlü şəkildə ünsiyyət qurmasını təmin etməkdir. Bu çalışmalar iştirakçılar arasında buzları əritməyə kömək edir və bu zaman təlimçinin bu sözləri süni şəkildə deməsinə ehtiyac qalmır: "Bu da buzqırma çalışması!". Bildiyiniz kimi, bu da bu mərhələdə ölümcül zərbə təsiri göstərə bilər.

Hesab edirik ki, daha əvvəl qeyd olunmuş ikinəfərlik müsahibə üsulundan dərhal sonra və ya kursun istənilən mərhələsində bu cür çalışmalardan sessiyanın açılışı üçün istifadə etmək daha faydalıdır. Eyni zamanda fərqli qruplarda fərqli faəliyyətlərin yaxşı nəticə göstərdiyini görəcəksiniz. Lakin bütün çalışmalarda hərəkət hərəkətsizlikdən üstün tutulur. Hər zaman dediyimiz kimi, çalışmaları öz şəxsiyyətiniz və təlim tərzinizə uyğunlaşdırmağa bir qədər vaxt ayırın.

# ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI



# RİSKLİ!

**İcmal**
İştirakçılar zərdən ipucu kimi yararlanaraq bir-biri arasında etibarlı münasibətlərin formalaşdırılmasını sürətləndirmək məqsədilə şəxsi məlumatları könülllü surətdə təqdim edirlər.

**Materiallar**
Bir və ya iki böyük zər (ideyalar üçün baxın: www.thetrainingshop.co.uk)

**Proses**

1. Zərinizi götürün və iştirakçıları otağın bir hissəsində sizə qoşulmağa dəvət edin.
2. İştirakçıları ikinəfərlik qruplara bölün (qrup üzvlərinin sayı çoxdursa, üçnəfərlik qruplar yaratmaq olar).
3. Bu çalışmanın bir-birini tanıma prosesini sürətləndirməyin bir qədər əyləncəli üsulu olduğunu izah edin. Zəri divara atıb 1-dən 12-yə qədər bir rəqəm söləyəcəyinizi bildirin. Onların vəzifəsi tərəf müqabilləri ilə birlikdə rəqəmlə əlaqəli şəxsi məlumatı müzakirə etmək və tapmaq, sonra bu məlumatı qrupla paylaşmaqdır, məsələn, "6 övladım var" və ya "Berlin divarı dağıdılanda 3 yaşım var idi".
4. Könüllü surətdə söylənən və rəqəmlə əlaqəli olan hər məlumat qrupa bal qazandırır – bal mükafat deməkdir!

**Proses (davamı)**

5. Cütlüklərin adlarını flipçartda qeyd edin.
6. Zər atın.
7. İştirakçılar göstərilən rəqəmlərlə əlaqəli məlumatlar söyləməlidirlər.
8. Əlaqə qura bilən cütlüklərin flipçartdakı adlarının yanına nöqtə qoyun.
9. Hər kəsin təşəbbüs göstərmək şansı qazanması üçün zəri daha bir neçə dəfə atın.
10. Balları toplayın və qaliblərə mənasız bir hədiyyə verin (və ya özünüzü sığortalayın və hamıya mənasız bir hədiyyə verin!).



**Məqsəd nədir?**
Bu çalışma etibarlı münasibətlərin formalaşdırılması üçün əyləncəli üsul olmaqla yanaşı, insanları çəkingənlik hiss etmədən danışmağa sövq etmək üçün əla üsuldur. Zər hər dəfə atıldıqca, iştirakçıların cavabları ilə müşayiət olunduqca həm təlimçi, həm də iştirakçılar cavabların daha da dəqiqləşdirilməsi üçün sual vermək imkanını qazanırlar. Məsələn: "İlk gitara dərsimi 7 yaşımda almışam" cümləsi bu suala gətirib çıxara bilər: "Doğrudan da, ifa etməyi yaxşı öyrəndinizmi? O yaşda gitaranı seçməyinizə nə səbəb oldu? Gitarada çalmağı sizə kim öyrətdi?" və s. Bu yanaşma əyləncəli və qeyri-formaldır, təqdimatlardakı gərginliyi azaldır.

**Variasiya**
İştirakçılardan cavabların keyfiyyətinin meyarlarını qərarlaşdırmağı xahiş edin, məsələn, ən əyləncəli, ən heyrətamiz, ən kədərli, ən ruhlandırıcı, ən qəribə və s. Səsvermə yolu ilə ən keyfiyyətli seçilən cavabın sahibi olan qrupa mükafat verin.

**Qapanış üçün variasiya**
İştirakçılardan kursda öyrəndiklərini zərdəki rəqəmlərlə əlaqələndirməyi xahiş etmək üçün zərdən yararlanın. Məsələn, "Mənə düşən 6 rəqəmidir ki, o da layihənin sıfırdan yaradılması üçün tələb olunan mərhələlərin sayı ilə eynidir".

# ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI

# VAXT QRAFİKİ

**İcmal**
İştirakçılar öz həyatının başlıca hadisələrinin vizual icmalını paylaşmaq üçün fiziki vaxt qrafikindən istifadə edirlər.

**Materiallar**
İp yumağı, A4 və ya A5 kağız, "Blu-Tack" plastilin, yapışqanlı qeyd kağızı, qayçı, marker qələmləri (hər kəs üçün yetərli sayda) və ya flipçartla qələmlər

**Proses**

1. Hər bir iştirakçıya ip parçası və iki A4 və ya A5 kağızı verin.
2. Kağızın birində "**Doğum**", digərində "**İndi**" yazmağı xahiş edin.
3. Hər bir iştirakçıya "Blu-tack" plastilini verib vaxt qrafiklərini otaqda hər kəsin görə biləcəyi bir yerə yapışdırmağı xahiş edin (divarda, divarın bir küncündən o biri küncünə, döşəmədə, tavanda, qapıda). Bu zaman "Doğum" bir yanda, "İndi" digər yanda olmalıdır.
4. Hər bir iştirakçıya yapışqanlı qeyd kağızları və marker qələmi verin, sonra da vaxt qrafiklərini öz həyatının bu günə qədərki əhəmiyyətli hadisələri və təcrübələri ilə doldurmalı olduğunu bildirin.

**Proses (davamı)**

5. Sonra bu yanaşmalardan birini seçin:
    - iştirakçıları ikinəfərlik qruplara bölün və vaxt qrafiki ilə nəzərdə tutulmuş mənanı bölüşməyi xahiş edin;
    - hər bir qrup iştirakçısından yoldaşını təqdim etməyini istəyin;
    - iştirakçılardan otaqda qalereyada gəzirmişcəsinə gəzişib bir-birinin vaxt qrafikləri haqqında sual verməyi xahiş edin;
    - iştirakçılardan vaxtın bitdiyi elan edildikcə başqa bir şəxslə ikinəfərlik qrup formalaşdırmağı xahiş edin (çevikliyi təmin etmək üçün 5 dəqiqəlik intervallardan yararlanın);
    - hər bir iştirakçıya qrupa öz vaxt qrafikini təqdim etməyi tapşırın.

***Diqqət***

Fikrimizcə, təlimçi üslubu müəyyən etmək üçün əvvəl öz vaxt qrafikini nümayiş etdirməlidir. Bu çalışmada iştirak zamanı insanların emosiyaları yüksələ bilər. Bu, təbiidir, çünki bəzi insanlar emosiyalarını bölüşməyi digərlərindən daha yaxşı bacarırlar, lakin bunun baş verəcəyindən narahatsınızsa, bu buzqırma çalışmasını tətbiq etməyin.

davamı

**Məqsəd nədir?**
Bu, təhlükəsiz və vizual təqdimat üsuludur. Bu üsul yaddaqalan, əyləncəli olmaqla yanaşı, erkən mərhələdə etimadlı münasibətlərin formalaşmasına yardım edir.

**Variasiya**
Mövzuya əsaslanan açılış məşğələsi olaraq, şəxsi inkişaf proqramlarında yaxşı nəticə verir.



# "MƏN" KARTI

**İcmal**
İştirakçılar həyat hadisələrini/faktları aid ola biləcəyini düşündüyü insanlarla əlaqələndirmək üçün yarışırlar.

**Materiallar**
Əvvəlcədən hazırlanmış kartlar, ad-soyad yazılmış döş nişanları (stikerlərdən istifadə edilə bilər), mükafatlar, məsələn, fərqli qablaşdırmada şirniyyatlar (istəkdən asılı olaraq)

**Proses**
1. İştirakçılar gəlib çıxdıqca onlara adın aydın yazıldığı döş nişanından istifadə etməyi tapşırın.
2. Hər bir şəxsə bir neçə başlığın yazıldığı kart təqdim edin, məsələn, sevdiklərim, nifrət etdiklərim, hobbilər, ən əyləncəli an, ən böyük nailiyyət, son iş, ən böyük yanlış cavab və s.
3. Heç kimin cavabları görməməsi şərtilə kartları cavablandırmağı xahiş edin.
4. Kartları toplayın və nömrələyin.

davamı

**Proses (davamı)**

5. İştirakçılara yarışdan əvvəl başqaları haqqında mümkün qədər çox məlumat öyrənmək məqsədilə otaqda gəzişmək üçün onlara təqribən 10 dəqiqə vaxt verildiyini, daha sonra kartları ucadan oxuyacağınızı bildirin.
6. "İrəli" komandasını verin (Təcililik/yarış ab-havası yaratmaq üçün "Dörd dəqiqə qalır", "İndisə iki" və s. kimi cümlələrdən istifadə edin). 10 dəqiqə sonra vaxtın bitdiyini elan edin.





**Proses (davamı)**

7. İştirakçılardan əyləşərək vərəqdə 1-dən başlayaraq (otaqdakı iştirakçıların ümumi sayı qədər) nömrələnmiş siyahını yazmağı xahiş edin.
8. Nömrələnmiş kartlara yazılmış məlumatları ucadan və ardıcıllıqla oxuyun. Hər kəsdən məlumatın aid olduğunu düşündüyü adı yazmağı xahiş edin. Nəticədə, hər bir rəqəmin yanında bir ad qeyd olunmalıdır.
9. Bütün kartlar oxunduqdan sonra iştirakçılardan kağızı işarələnmək üçün hazır vəziyyətdə yanlarındakı şəxslə dəyişdirməyi xahiş edin (hiylə olmayacaq şəkildə).
10. Hər bir kartı yenidən oxuyub kimin nə düşündüyü haqqında ümumi təəssürat əldə etdikdən sonra məlumatların aid olduğu şəxslərdən özlərini açıqlamağı xahiş edin. İştirakçılar işarələdikləri kağıza quş və ya çarpaz işarəsi qoyurlar.
11. Ən çox düzgün cavabı kimin verdiyini öyrənin və onu alqış, mükafat və ya istədiyiniz başqa bir şeylə mükafatlandırın.

**Məqsəd nədir?**

Çox vaxt təlimçilər tanımadığın insanlarla dolu bir otağa girməyin necə qorxulu olduğunu, etibarlı münasibətlərin qurulması üçün nə qədər çox vaxtın tələb edildiyini unudurlar. Bunlara görə narahat olan hər kəs bir qədər stres keçirir və nəticədə, nəsə öyrənmək ehtimalı azalır. Bu bütün qrup üzvlərinin erkən mərhələdə bir-birini tanıması üçün əyləncəli və əla üsuldur.



**Variasiya**

- Nömrələnmiş kartları qaytarın – hər iştirakçıya bir kart.
- Kartı heç kimə göstərməməyi xahiş edin.
- Kartın sahibini tapdıqları qənaətinə gələnədək otaqda sual verə-verə gəzişməyi xahiş edin.
- Sahibini tapdıqlarını güman etdikdə həmin şəxsin adını kartda qeyd etməli, lakin düşüncələrini büruzə verməməlidirlər.
- Hər bir şəxsdən kartında yazılan məlumatları ucadan oxumağı, məlumatın kimə aid olduğu haqqında fikirlərini bölüşməyi xahiş edin.
- Bütün düzgün cavabları şirniyyatla mükafatlandırın.
- Alternativ olaraq, ikinəfərlik və ya daha böyük qurplar daxilində işləməyi xahiş edin.

**Qapanış üçün variasiya**

Bundan insanların bir-birini nə dərəcədə yaxşı tanıdığını öyrənmək üçün kursun sonunda istifadə edin ("sürətli viktorina" şəklində təşkil oluna bilər). Bu cür çalışmaların yaşayış yerinin təmin edildiyi və insanların bir-birini bir qədər daha yaxşı tanımaq imkanını qazandığı nisbətən uzunmüddətli kurslarda daha yaxşı nəticə verdiyini müşahidə edirik.

## ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI

# TƏYYARƏ ƏYLƏNCƏSİ

**İcmal**
İştirakçılar məqsədini tam bilmədən kağızdan təyyarə hazırlamağa tələsdirilirlər, sonda bunun, sadəcə, onları ikinəfərlik qruplara ayırmaq üçün mənasız, əyləncəli bir üsul olduğu üzə çıxır!

**Materiallar**
Kağız və marker qələmlər

**Proses**

1. İştirakçıları iki qrupa ayırın.
2. Bir qrupdan kağızdan təyyarələr hazırlayıb onu kimliklərini əks etdirdiklərini düşündükləri şəkillərlə bəzəməyi xahiş edin.
3. Digər qrupun hər bir üzvünə A4 kağızı verib həyatda ən sevdikləri şeyə eyham vuran hədəf hazırlamağı xahiş edin.

davamı

**Proses (davamı)**

4. Hər iki qrupa tapşırığı yerinə yetirmək üçün bir dəqiqə vaxt verin. İşlərində hansısa məqamda adlarını qeyd etməyi tapşırı. İştirakçıları tələsdirin!
5. Hədəflərinin olduğu iştirakçılardan otağın bir tərəfində dayanıb hədəfləri ayaqlarına doğru tutmağı xahiş edin.
6. Təyyarələrinin olduğu iştirakçılara onları otağın digər tərəfindən hədəfə doğru uçurmağı tapşırın.
7. İştirakçılardan təyyarələrin ən yaxın düşdüyü hədəfin sahibi ilə müsahibə üçün qruplaşmağı xahiş edin.





**Məqsəd nədir?**
Bu çalışma iki üsulla etibarlı münasibət yaradır:

- bütün bu tələskənliyin, sadəcə, insanları təsadüfi qaydada qruplaşdırmaq məqsədini güddüyünü öyrəndikdə bütün iştirakçılar bir ağızdan gileylənəcəklər. Bir ağızdan gileylənmə etibarlı münasibətdir!;
- bundan sonra sərbəst ab-hava yaranacağından şəxsiyyətlərinin hansısa xüsusiyyətinə işarə edən incəsənət əsərlərinin müzakirəsini aparmağı tapşırmaq zəruriyyəti, demək olar ki, yaranmayacaq. Yəqin ki, bunsuz da bir-birinə sual verməkdən çəkinməyəcəklər.

**Variasiya**
Çalışmanı kursun mövzusu ilə əlaqələndirmək üçün iştirakçılardan özləri haqqında başqa (müvafiq) məlumat danışmağı xahiş edin. Məsələn, qətiyyətlilik kursunda: təyyarənin bir qanadında, adətən, münaqişənin öhdəsindən necə gəldiklərini əks etdirən şəkil çəkə, digər qanadında başqalarının hisslərindən nə dərəcədə xəbərdar olduqlarını 1-dən 10-a qədər rəqəmlərlə göstərə bilərlər. Hədəf onların şəkillər/sözlər vasitəsilə məqsədə nə dərəcədə yaxşı nail olduqlarını aşkar edə bilər.

**Qapanış üçün variasiya**
İştirakçılardan təyyarəni bir daha atmağı xahiş edin. Onun düşdüyü yerə ən yaxın duran şəxs kursdan sonra nəticələrin izlənməsi prosesində təyyarəni atan şəxsin yoldaşı olmalıdır.

## ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI

# ALIN

**İcmal**
İştirakçılar otaqda gəzişir, qarşılarındakı şəxsin alnındakı məlumat haqqında suallar verirlər.

**Materiallar**
Yapışqanlı qeyd kağızı və qələmlər

**Proses**

1. Hər bir iştirakçıdan şəxsi məlumatlarını yapışqanlı qeyd kağızına iki cümlədə yazıb kağızı alınlarına yapışdırmağı xahiş edin.
2. Otaqda gəzişib qarşılarındakı şəxsin alnına yazılan fikirlər haqqında sual verməyi, öz alnına yazılanlar barədə sualları cavablandırmağı xahiş edin.

**Məqsəd nədir?**
Diqqətin yönəldiləcəyi bir məqam ətrafında söhbətin aparılması (kiminsə alnında yazılan məlumat haqqında sual vermək kimi) daha asan və daha az streslidir, nəinki kiminləsə, sadəcə, tanış olmaq. Fəaliyyət həmçinin əyləncəlidir və günün qalan hissəsi üçün gərginlikdən uzaq ton müəyyən edə bilər.

**Variasiya**
Yazılmalı olan mövzuları dəqiqləşdirin, məsələn, məktəb illərinizə dair iki xatirə, işinizə dair iki qeyd, yanaşmanıza dair iki məqam, alnınıza yapışqanlı qeyd kağızı yapışdırıb gəzmək əvəzinə, üstünlük verəcəyiniz iki məşğələ.

**Qapanış üçün variasiya**
İştirakçılar iki çalışma maddəsini alınlarına yapışdırıb otaqda sürətlə gəzişir ("Qeyri-mümkün missiya" filminin musiqisindən istifadə oluna bilər) və planlarını həmkarları ilə müzakirə edirlər.



# ETİBARLI MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASI ÜÇÜN BUZQIRMA ÇALIŞMALARI

# LÜĞƏT

**İcmal**
İştirakçılar özlərini təqdim etmək üçün təsadüfi bir sözdən istifadə edirlər.

**Materiallar**
Lüğət

**Proses**

1. Təqdimatların bir hissəsi olaraq, lüğəti növbə ilə hər kəsə ötürün.
2. Onlara deyin ki, lüğəti təsadüfi qaydada açıb barmaqlarını üzərinə qoyduqları ilk sözdən öz təqdimatlarında istifadə etsinlər.

**Məqsəd nədir?**
Diqqətin təsadüfi sözün təqdimata salınmasına yönəldilməsi auditoriya qarşısında danışmağa vərdiş etməmiş insanların qorxularının azalmasına səbəb ola bilər. Söz diqqətin cəlb olunmasını təmin edir və bu, əyləncəli çalışmadır.

**Qapanış üçün variasiya**

İştirakçılara lüğətdən təsadüfi bir söz seçib onu günün sonuna və tədbirlər planına dair şərhlərinə daxil etməyi tapşırın.



# MƏNİM KİMİ JURNAL

**İcmal**
İştirakçılar jurnaldan bir şəxsin şəklini kəsir, özlərini təqdim edir, seçdikləri şəxsə nə üçün bənzədiyini söyləyirlər.

**Materiallar**
Bir topa jurnal, qayçı, öz həyatınızla bəzi paralellər apara biləcəyiniz bir şəxsin jurnaldan kəsilmiş şəkli

**Proses**

1. İştirakçılar gəlməmişdən əvvəl jurnalları yerləşdirin.
2. Özünüzü təqdim edərkən kiminsə jurnaldan kəsdiyiniz şəklini əlinizdə saxlayın və həmin şəxsə nəyə görə bənzədiyinizi izah edin.
3. Sözünüzü bitirdikdən sonra (lakin təqdimatlardan əvvəl) iştirakçıları hazırladığınız jurnallara yönləndirin. Şəxsiyyətlərinin bir hissəsini əks etdirdiyini düşündükləri bir şəxsin şəklini kəsmək üçün jurnalı üç-dörd dəqiqə ərzində nəzərdən keçirməyə dəvət edin.

**Proses (davamı)**

4. Təqdimatları istədiyiniz üsulla idarə edin (ikinəfərlik müsahibəni tövsiyə edirik) və bu sualı da verin: "Bu insanla bənzərliyiniz nədədir?"
5. İştirakçılar jurnaldan kəsdikləri şəkli əllərində saxalyır, şəkildəki şəxslə özləri arasında istədikləri paralelləri aparırlar.
6. İştirakçılardan şəkli adlarının yazıldığı karta və ya qrupun qalan üzvlərinin görə biləcəyi bir yerə yapışdırmağı və günün sonunadək orada saxlamağı xahiş edin.





**Məqsəd nədir?**
Bu çalışma iştirakçıları özləri haqqında normal hallarda deyəcəklərindən daha çox söz deməyə sövq edir. Bu cür əyləncəli təqdimatlar insanlara gərginlikdən xilas olmağa, daha tez etimad bəsləməyə və güvənli münasibət formalaşdırmağa kömək edir. Bu həmçinin təlimçiyə gün ərzində çalışma müddətində deyilmiş hər hansı məqama istinad etmək imkanını verir. Söhbət məzmununuzla ciddi bir paralelin aparılmasından və ya əyləncəli ab-havanın qorunub saxlanması məqsədilə verilmiş dostyana bir şərhdən gedə bilər.

**Variasiya**
Kursdan əvvəl iştirakçılara özləri ilə şəxsiyyətlərinin bir hissəsini əks etdirdiyini deyə biləcəkləri bir şəkil və ya başqa əşya gətirməyi tapşırın.

**Qapanış üçün variasiya**
- İştirakçılardan jurnallardan xoşladıqları obrazı seçməyi xahiş edin.
- Həmin şəxsin öz tədbirlər planını yerinə yetirərkən iştirakçının yerində olub nə edəcəyini soruşun. Məsələn: "Mən Klint İstvudu seçmişəm. O heç bir əngəllə barışmazdı və özünə dair heç bir şübhə hissi bəsləmədən mənim qorxunc rəhbərimə etiraz edərdi".




# "BUM!" EFFEKTLƏRİ

## “BUM!” EFFEKTLƏRİ

# EFFEKTLƏ AÇILIŞ EDİN




"**Bum!**" effekti prinsipi Con Taunsendin ""Təlimçilər" kitabından kitabından götürülüb. O, kursun ilk bir neçə dəqiqəsində dinləyicilərin diqqətini cəlb etmək üçün nəsə etməli olduğumuzu irəli sürür. Səbəb budur ki, kursa gələn iştirakçıların çoxu hələ də e-məktublar, səhər yeməkləri, səyahətləri haqqında düşünürlər. "Bum!" effekti həm fiziki, həm **zehni** iştirakı təmin etmək məqsədilə onları otağa qaytarır.

Bunu bu giriş sözləri ilə müqayisə edin: "Sanitar qovşaqlar zalda, çıxışlar oradadır, məqsədlər isə bunlardır..." Necə də cansıxıcı! Bu məlumatlar vacibdir, lakin birinci sıraya salındıqda etimadlı münasibətlərə mane ola bilər, **çünki** iştirakçıların gözlədiyi də elə budur, ona görə də sizə diqqətlə qulaq asmayacaqlar.

İşinizi "bum!" effekti ilə yekunlaşdırmaq həm də kursunuza parlaq, yaddaqalan final qazandıra, iştirakçılara əsas mesajlar zehinlərinə həkk olunaraq kursdan getməyə imkan verə bilər.

Kitabda yer verilən nümunələr heç də mütləq surətdə inqilabi xarakter daşımır. Verilən statistik məlumatlar sizə tanış ola bilər. Məsələ burasındadır ki, "bum!" effektləri yaxşı nəticə verir. İnsanları birbaşa kursun məzmunu haqqında düşünməyə sövq edir. Həqiqətən, heyrətamiz, sarsıdıcı, fərqli və ya gülməli bir məlumat tapıb açılış hissəsinə daxil edin və insanların əyləşib düşünməsini təmin edin: "Bəli, bəlkə də, bu insana qulaq asmağa dəyər".

## "BUM!" EFFEKTLƏRİ




# TƏLİMLƏRİN KEÇİLMƏSİ ÜÇÜN VACİB MƏSLƏHƏTLƏR

- "Bum!" effektləri kursun məzmunu ilə əlaqəli olduqda daha yaxşı nəticə verir. Onlara heyrətamiz statistik məlumatlar, hekayələr, metaforlar, qeyri-adi gələn hər şey nümunə ola bilər. Nümunələrlə tanış olmaq üçün növbəti səhifələri nəzərdən keçirin.
- Demək istədiklərinizi hekayə formasında və ya effektlə danışın. Bu işdə hekayəçilik mövzusunda seminarlar təklif edən http://www.thetrainingshop.co.uk saytı sizin köməyinizə çata bilər.
- Etdiyinizi yaxşı satmaq üçün işinizə bir qədər fərdilik qatın. Bu, vacibdir. Əslində, bütün açılış və qapanış çalışmalarıniz bir qədər şövqlə təqdim edilməlidir.
- Mesajlarınızı ötürərkən entuaziazmınızı çəkinmədən nümayiş etdirin. Con Taunsendin dili ilə desək, "Siz entuziazmla yanaşmırsınızsa, iştirakçılar niyə entuziazm hiss etməlidirlər?'" ("*Təlimçilər*" *kitabı*)

# “BUM!” EFFEKTLƏRİ

## TOPLANTILAR

**Toplantıların uğurla idarə edilməsi**
Toplantıların keçirilməsi üçün orta hesabla hansı məbləğdə xərc tələb olunduğunu bilirsinizmi (insanların sayını orta saatlıq əməkhaqqına vurmaqla rəqəmləri müəyyən edin)?. Buna görə də bu gün bu toplantılardan makismum faydanın əldə olunması üçün sizə bəzi üsullar təqdim edəcəyik.

**Daha böyük "bum" effekti üçün**
Rəqəmləri deyərkən eyni zamanda pulları sayın ("Monopoliya" oyununun pullarından istifadə oluna bilər). Yaxud ventilyatorla havaya sovurun, yaxud hər bir əsginası lövhəyə yapışdırın (yapışdırıcı spreydən istifadə edin).

## TƏQDİMATLAR

**Təqdimat bacarıqları**
Klassik sorğulardan birinin nəticəsinə görə, insanların ən böyük qorxusu geniş auditoriya qarşısında danışmaqdır. Ölüm üçüncü ən böyük qorxudur. Bu gün sizə bu qorxunu azaltmağa kömək edəcəyik.

**Daha böyük "bum" effekti üçün**
Statistik məlumatları açıqlayarkən "Ölüm marşı"nı səsləndirin. Bu gün qorxunu azaltmağa kömək edəcəyinizi ifadə edərkən daha ritmik bir musiqiyə keçin.

# “BUM!” EFFEKTLƏRİ




## RİSK

**Riskin idarə edilməsi**

2003–2004-cü illərdə işçilər arasında 235 ölüm halının baş verdiyini və ötən il Əməyin mühafizəsi idarəsi tərəfindən cinayət təqiblərinin sayının 6 %-ə qədər artdığını bilirdinizmi? Statistikaya çevrilməyinizə imkan verməyin: bu kurs sizə buna nail olmağın yollarını göstərməkdə kömək edəcək (Mənbə: Əməyin mühafizəsi idarəsinin veb-saytı).

**Daha böyük "bum" effekti üçün**

Corab, çaydan, kərpic və s. kimi müxtəlif əşyaları düzüb 2004-cü ildə Birləşmiş Krallıqda ən böyük qatilin hansı olduğunu soruşun. Yaxud 2004-cü ildə ölümcüllük baxımından hansı peşənin ən çox/ən az təhlükə təşkil etdiyini soruşun. Ya da ölüm hallarının ən az rast gəlindiyi inzibati işlərdə çalışan insanlarla danışırsınızsa və daha ağlabatan qənaət formalaşdırmaq istəyirsinizsə, 2004-cü ildə işdən fasilə götürülməsinin ən böyük səbəbinin nə olduğunu soruşun. Cavablarla tanışlıq və açılış çalışmalarına müvafiq gələn digər xeyli sayda statistik məlumatlar üçün baxın: http://www.hse.gov.uk/ statistics.



davamı

# "BUM!" EFFEKTLƏRİ

## DAVAMİYYƏTSİZLİK

**Davamiyyətsizliyin idarə edilməsi**
2003-cü ildə 2,2 milyon insanın işlə əlaqədar xəstəlikdən əziyyət çəkdiyini bilirdinizmi? Buna görə də insanların işə mümkün qədər tez qaytarılması üçün davamiyyətsizliyin idarə edilməsi vacibdir. Bu kurs sizə buna nail olmağın yollarını göstərməkdə kömək edəcək.

**Daha böyük "bum" effekti üçün**
İştirakçılardan komandaları daxilində təqribən neçə günün itirildiyini öyrənməyi xahiş edin. Onları toplayın və davamiyyətsizliyin təqribi xərcini hesablayın.

## MÜŞTƏRİ XİDMƏTİ

**Pis xəbər tez yayılır...**
Müştərilərin xidmətdən məmnun olmadığı haqda, təqribən 10–12 nəfərə məlumat verdiyini bilirdinizmi? Yaxşı xəbər budur ki, bu kursdan əldə edəcəyiniz bəzi məlumatlar müştərilərinizi asanlıqla qaytarmağa yardımçı olacaq.

**Daha böyük "bum" effekti üçün**
Əyani nümunə olaraq, azsaylı təşəkkür məktublarının yanında böyük bir topa şikayət məktubu yerləşdirin! (Üst hissəyə hər növdən bir məktub yerləşdirməklə boş A4 kağızlarından istifadə edin!)




# TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALARDAN – METAFOR, ANALOGİYA VƏ DİALOQDAN İSTİFADƏ

## TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALAR

# YADDAQALAN AÇILIŞLAR

Tonu müəyyən edən çalışmalar hissləri oyandıran qısa fikirlərdir. Mövzunu insanların artıq bildiyi bir məlumatla əlaqələndirərək təqdim edirsiniz. Bu bölmədə bir neçə nümunəyə yer verilir. Eyni zamanda öz nümunələrinizdən istifadəni təşviq edirik. Düzgün seçim etdikdə iştirakçıların sonda ən yaddaqalan anın əvvəldə işlətdiyiniz analogiya olduğunu söylədiyini eşidəcəksiniz!

Bu reaksiya bizi tonun müəyyənləşdirilməsi üçün açılış çalışmalarından istifadənin niyə bu qədər effektiv olduğu haqqında düşünməyə vadar etdi və belə hesab edirik ki, səbəblər aşağıdakılardır:

- tədbirin əvvəli insanların diqqətinin ən yüksək səviyyədə olduğu vaxtdır (psixologiyada öncəlik effekti);
- erkən mərhələdə artıq bildiyimiz bir mövzunun bənzər prinsipləri ilə əlaqələr qurulduqda yeni mövzularla dərhal bağlantı qurur, öyrənməyə daha çox hazır oluruq;
- hekayələrin zehində yaratdığı obrazlar uzunmüddətli yaddaşda həkk olunur.

# YADDAQALAN AÇILIŞLAR

**Tonun müəyyən edilməsi üçün çalışmalar nəyə görə effektivdir (davamı):**

- özümüzə yaxın hiss etdiyimiz hekayələr beynimizin emosional hissəsini körükləyir, bu isə marağımızın yaranmasına səbəb olur (özümüzdən asılı olmur!);
- tonu müəyyən edən çalışmalar sonradan təqdim olunacaq təfərrüatlar üçün lövbər rolunu oynayır. Gün ərzində insanlar təfərrüatların içində ilişib qaldıqda məsələyə ümumi baxış üçün onlara müraciət edirlər;
- yaxud Alan və Pol, bəlkə də, yalnız 10 dəqiqə maraq cəlb edə bilirlər!

Hər halda, sınaya biləcəyiniz bir neçə nümunə ilə tanış olacaqsınız. Nümunələrin mövzu ilə bağlı şəkil və ya obyektlə əlaqələndirildiyi halda, təsirinin daha da güclü olacağını hesab edirik (Şəkillərə dair müvafiq təkliflər nümunələrə daxil olunub).

## TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALAR

# 1. DİNLƏMƏ VƏ SUALVERMƏ BACARIQLARI

***Çalaya düşməyin!***

Təxminən belə deyə bilərsiniz: "Yaxşı dinləmə və sualvermə bacarıqlarını müntəzəm qaydada məşq etmək palçıqlı cığırda getdikcə daha dərin çala yaratmağa çalışmaq kimidir. Çala nə qədər dərin olarsa, ondan çıxmağınız o qədər nəzərə çarpar".

Bu bənzətmənin kursla əlaqəsi budur ki, bu bacarıqlardan istifadəni nə qədər çox məşq etsəniz, bir o qədər dərin çala yaradacaq və o çaladan çıxıb həmsöhbətinizin sözünü kəsməyə başladıqda və ya başqa zəif ünsiyyət vərdişlərindən istifadə etdikdə bunun fərqinə daha çox varacaqsınız".

**ŞƏKİL TƏKLİFİ** Palçıqlı cığır (kataloq və ya jurnaldan)

# 2. TOPLANTILAR

***Davam edin, doktor.***

Təxminən belə deyə bilərsiniz: "Son dəfə ailə həkiminə müraciət edərkən suallarınıza cavab almadan, gələcək qənaət haqqında məlumat və ya heç olmasa, nəzərəçarpan bir nəticə əldə etmədən qayıtmağa hazır idinizmi? Cavab, yəqin ki, mənfidir. Niyə də toplantıya eyni gözlənti ilə getməyəsiniz? Bugünkü kursda toplantılardan maksimum nəticəni necə əldə edə biləcəyiniz haqqında vacib məsləhətlər veriləcək".

**ŞƏKİL TƏKLİFİ**

Resept – hamının görə bilməsi üçün A3 kağızında surəti çıxarılarsa, daha yaxşı olar.



# 3. RƏHBƏR BACARIQLARI

***Danışmaq faydalıdır.***

Təxminən belə deyə bilərsiniz: "İnsanlar işləri qaydasında getmədikdə, adətən, psixoloji dəstək göstərən təşkilatın qaynar xəttinə müraciət edirlər. Bu cür təşkilatda çalışanların vəzifəsi mühakimə etmədən dinləməkdir. Ona görə də işlər qaydasında getmədikdə, ən yaxşısı, mühakiməsiz dinləməkdir. Sual: bunu etmək üçün işlərinizin qaydasında getməməsini gözləmək vacibdirmi? Bugünkü kursun məqsədi sizə mühakimə etmədən dinləməyə yardım etməkdir.
Bu sizə kouçinq, mentorluq, hətta nizam-intizam müsahibələri zamanı yardım göstərəcək".

**Variasiya**

Bu sualları verin: "Bu cür təşkilatda çalışanların bacarıq və yanaşmaları nədən ibarətdir?", "Bir rəhbər olaraq, bunlardan hansılar sizin üçün məqsədəuyğundur, hansılar deyil?" (Bu çalışma müzakirənin təşviqi üçün rəhbərlik etdiyiniz böyük və ya daha kiçik qruplar daxilində tətbiq oluna bilər.)

**ŞƏKİL TƏKLİFİ** Psixoloji dəstək göstərən təşkilatın loqotipi və ya telefon nömrəsi

TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALAR

# 4. MÜŞTƏRİ XİDMƏTİ

***Auditoriya önündə tərif***

Belə deyə bilərsiniz: "Son dəfə təriflǝndiyiniz və tənqid edildiyiniz anları düşündükdə ən tez hansı yadınıza düşür? Hansına daha çox nümunə gətirə bilərsiniz? Ümumiyyətlə, mənfi halları müsbət hallardan daha çox yadda saxlamağa meyil göstəririk. Bu, auditoriya ilə işləyən insanlara da aiddir. Əslində, insanları sevdiyimizi asanlıqla unuda bilirik. Mənfi təcrübələrin dominantlıq etməsinə yol verdiyimiz anlar olur. Şikayət şöbəsində işləmirsinizsə, auditoriya ilə çalışarkən yaxşı və pis təcrübələri, ən azı, 50/50-yə bölməyinizi təklif edirəm. Həttə müsbət mənfini üstələyə də bilər. Yaxşı və pis təcrübələri bir araya toplayıb tam bir neqativlikdə birləşdirmək çox asandır. Bugünkü kursda daha balanslı baxış bucağı əldə etmək üçün auditoriya ilə işin neqativ elementlərinin idarə edilməsi bacarıqlarını öyrənəcəksiniz".

**ŞƏKİL TƏKLİFİ** Gülən və ya ağlayan insan, yaxud teatra xas gülən/ağlayan maska

# 5. RƏY

### *Alt geyimi*

Təqribən belə deyə bilərsiniz: "Sizə alt geyimi haqqında əhvalat danışmaq istəyirəm. Yeddi yaşım tamam olan gün xalam mənə bir hədiyyə etmişdi. Çox gözəl kağıza bükülmüş hədiyyənin içində nə olduğunu görmək üçün səbirsizlənirdim. Kağızını açıb içində nə olduğunu gördükdə gözlənilmədən məyus oldum – böyüklər üçün nəzərdə tutulan, ölçüsünə görə, hədsiz böyük alt geyimi. Gözlədiyim şey bu deyildi. Bu hədiyyə heç nəyə yaramırdı. Nəhayət, alt geyimini kəsib təmizlik bezi kimi isitfadə etmək qərarına gəldik".

"Rəy də buna bənzəyir. Rəy vermək kiməsə hədiyyə vermək kimidir. Onu resipiyent üçün məqbul hala gətirmək üçün mümkün qədər yaxşı qablaşdırmalısınız. Resipiyent alacağı rəyə görə qarışıq hisslər keçirəcək. Onu səbirsizliklə gözləyə və ya ondan qorxa bilər. Rəy aldıqda isə istədiyi kimi olmadığını görə bilər. Məsələ burasındadır ki, onun rəyin yaxşı olub-olmadığını, istifadə edilə bilib-bilməyəcəyini seçmək imkanı var. O, rəyi qəbul edə və ya alt geyimi olduğu qənaətinə vara bilər! Bugünkü kurs sizə başqaları üçün mümkün qədər məqbul və faydalı rəy formalaşdırmaqda kömək edəcək".

**ŞƏKİL TƏKLİFİ** Hədiyyə kağızına bükülmüş alt geyimi (özünüz çəkin və ya real şəkildən istifadə edin!)

## TONU MÜƏYYƏN EDƏN ÇALIŞMALAR

# 6. KOUÇİNQ

### *Sarımsaq və bişmiş lobya*

Belə deyə bilərsiniz: "İnsanların hərəkətlərinə dair fərqindəliyini arıtrmaq istədikdə (yəqin ki, kouçinq üsulu ilə) iki növ insanla qarşılaşa bilərsiniz: sarımsaq insanlar və bişmiş lobya insanlar. Hər iki qidadan hədsiz istifadə etsəniz, başqalarına təsir göstərəcəksiniz!"

"Əksər hallarda, həddən artıq sarımsaq yedikdə özünüzdən başqa, hər kəs onun təsirindən xəbərdar olur. Bişmiş lobyanı çox yedikdə hamımız nəticəsindən xəbərdar oluruq. İnsanlar da belədir. Bəziləri hərəkətlərinin başqalarına təsirindən xəbərsiz olduqlarını nümayiş etdirirlər, onlar sarımsaq insanlardır. Bişmiş lobya növləri isə göstərdikləri təsirdən yaxşı xəbərdardırlar. Bunu demək ədalətli olarmı: Başqalarına göstərdikləri təsirdən xəbərdar/bixəbər olması nəzərə alınaraq, bu iki növ insana təqdim edilən kouçinq və rəy fərqli olmalıdırmı?"

"Bugünkü kurs sizə tərzinizi bu müxtəlif insan növlərinə uyğunlaşdırmağa kömək edəcək".

**ŞƏKİL TƏKLİFİ** Bir qədər sarımsaq və bişmiş lobya konserv qutusu

# 7. MÜŞTƏRİ XİDMƏTİ

### *Yaxşı cilalama*

Kursun əvvəlində özünüzü təqdim etmək üzrə ikən bir nəfərin könüllü şəkildə önə çıxmasını xahiş edin (qara ayaqqabı geymiş bir şəxsi seçin). Özünüzü təqdim edərkən sözlərinizə ara vermədən (eyni vaxtda çox sayda tapşırığı yerinə yetirə bilməlisiniz) könüllünün ayaqqabılarını ənənəvi cilalama qaydası ilə cilalayın. Nə etdiyiniz haqqında heç nə deməyin. İşinizi yekunlaşdırdıqdan sonra könüllüdən yerinə qayıtmağı xahiş edin. İştirakçılara "Bu davranışın mənası nə idi?" sualını verin.

Gözlənilən cavab "Müştərinin gözlədiyindən daha artığını etdiniz, bu da müştəri xidmətinin bir hissəsidir" olmalıdır. Bu cavabı aldıqda fikri daha geniş izah edin.

Ayaqqabını cilaladığınız üçün pul təklif etsələr, götürməyin!






# 8. RƏY

### *Ağıllı it*

Bu bənzətmədən istifadə edə bilərsiniz: "Tualet ehtiyacını arxa bağçada ödədiyinə görə itinizə belə deməzsiniz: "Tualet ehtiyacını bağın düzgün hissəsində ödədiyinə görə təşəkkür edirəm, Fido. Hərəkətindən çox razıyam, çox sağ ol". Sadəcə belə deyərsiniz: "Afərin". Başqa nəsə deməyə ehtiyac da yoxdur".

Yetkinlik yaşına çatmış şəxslərə səbəbini söyləmədən "afərin" və ya onun ekvivalentini demək məqsədəuyğun deyil. Yetkinlik yaşına çatmış şəxslər əsaslandırılmış tərifə ehtiyac duyurlar. Məsələn: "Hesabatı belə tez hazırladığınıza görə təşəkkür edirəm. Rəhbərlik qarşısında çıxış edərkən mənə, həqiqətən də, çox köməyi dəydi".

"Beləliklə, sözün qısası, itlərlə insanları eyni cür tərifləməyin".




**ŞƏKİL TƏKLİFİ** İtlər üçün peçenye

# 9. MƏLUMATIN TƏQDİM EDİLMƏSİ

***Paltaryuyan maşın***

Belə bir bənzətmə apara bilərsiniz: "İnsanlara verəcək məlumatınızın olması maşında paltar yumağı xatırladır. Bütün camaşırları maşına doldurmaq istəsəniz də, bilirsiniz ki, bu halda, su onların üzərinə yetərincə çıxmayacaq. Ona görə də işin düzgün görülməsi üçün maşına daha az camaşır yerləşdirirsiniz. Bu, insanlara məlumatların ötürülməsinə də aiddir. Öz-özünüzə düşünməlisiniz: "İnsanları ifrat məlumatla yükləməmək və hər şeyin lazımınca mənimsənilməsi üçün optimal həcm hansıdır?" Bu kurs sizə ötürməli olduğunuz vacib mesajları prioritetləşdirməkdə yardım edəcək".

**ŞƏKİL TƏKLİFİ** Yuyucu toz paketi

# 10. KÜTLƏ QARŞISINDA DANIŞMAQ/ TƏQDİMAT ETMƏK

***Mansardın genişləndirilməsi***

Bu bənzətmədən istifadə edə bilərsiniz: "Auditoriya qarşısında çıxışın edilməsinə mansardın genişləndirilməsi kimi baxmaq faydalı ola bilər. Mansardınızı genişləndirdikdə evinizi 30 %-ə qədər genişləndirmiş olursunuz. Kimsə mansardın hələ də evinizin bir hissəsi olub-olmadığını soruşsa, "bəli" cavabını verərsiniz.

Bu, auditoriya qarşısında edilən çıxışlara da aiddir. Sadəcə, özünüzü 30 %-ə qədər genişləndirirsiniz, lakin hələ də özünüz olaraq qalmaqdasınız. Bəzən insanlar 30 % qaydasını unutduğuna görə özlərini geri çəkirlər. Mövcudluğunuzu 30 %-ə qədər genişləndirməsəniz, nəzərə çarpmayacaqsınız! Bugünkü kursda sizə möhkəm bünövrənizi itirmədən özünüzü 30 %-ə qədər necə genişləndirə biləcəyiniz barədə məsləhətlər təqdim olunacaq".

# 11. KOUÇİNQ

## *Təhlükəsizlik kəməri*

Təxminən belə deyə bilərsiniz: "Dostum uşaqlarını məktəbə apararkən onunla birlikdə avtomobildə idim. Uşaqlardan birinin 4 yaşı var və təhlükəsizlik kəmərini təkbaşına bağlamağı öyrənməyə çalışır. Onun əziyyət çəkdiyini görür və elə yardım etmək üzrə idim ki, dostum bunu hiss edib məni dayandırdı. Dostumun qızı daha iki dəqiqə sərf etdi və sonda kəməri bağladı. Sonradan dostumdan tələsdiyimiz vaxt qızının əziyyət çəkməsinə niyə imkan verdiyini soruşduqda o dedi: "Qızım bunu nə vaxtsa öyrənməli idi və vaxt azlığına görə bu imkanı ondan oğrulaya bilməzdim". "Kouçinq də eynilə belədir. Kouç/rəhbər olaraq, işinizin bir hisəssi insanların təkbaşına öyrənmək üçün əziyyət çəkməsinə imkan verməkdir. Xüsusilə işlər çox olduqda özünüzə bunu xatırlatmaq vacibdir: öyrənmək üçün bundan daha yaxşı imkan ələ düşəcəkmi? Bugünkü kurs geniş yayılmış kouçinq dilemmalarından bəzilərinin öhdəsindən gəlməkdə kömək edəcək".

**ŞƏKİL TƏKLİFİ** Təhlükəsizlik kəməri



# Filtrlər

FİLTRLƏR



# GİRİŞ

Filtrlərin açılması ideyası NLP-nin istədiyimiz və eşitməyə kökləndiyimiz məlumatları qəbul etdiyimizə dair prinsipinə əsaslanır. Sadə nümunələrdən biri adınızdır: söhbətin qalan hissəsini eşitməsəniz belə, bir qədər uzaqda aparılan söhbət içində öz adınızı eşidə bilərsiniz.

Beləliklə, kurs haqqında məlumatları əvvəlcədən təmin etməklə insanlara ən çox maraqlandıqları məzmunu eşitmək üçün zehinlərində müəyyən filtrlər qurmaqda köməklik göstərirsiniz.



## FİLTRLƏR

# İÇKİ VƏ KARTLAR



**İcmal**
İştirakçılar fincan altlıqlarında yazılanları oxumaqla kurs haqqında məlumat əldə edirlər.

**Materiallar**
Kartlar

**Proses**
1. Bəzi məlumatların yazıldığı kartları iştirakçıların qarşılarındakı fincanların altına, yaxud günün əvvəlində hər bir şəxsin oturacağının altına yerləşdirin.
2. İştirakçılara tapşırın ki, əldə etdikləri məlumatları bir-biri ilə bölüşsünlər (yəqin ki, bunu ilkin təqdimatlardan sonra tətbiq etmək daha məqsədəuyğundur).

**Məqsəd nədir?**
Bu cür ilkin qiymətləndirmə iştirakçılarda həm mövzulara maraq duymağa, həm də təqdim olunduqca səhər saatlarında kartların verdiyi istiqamət əsasında apardıqları müzakirələrlə əlaqədar məlumatları filtrləməyə imkan verir.

# TƏMƏL QAYDA VƏDİ



**İcmal**
İştirakçılar sessiya müddətində bir-birində görmək istədikləri və istəmədikləri davranışları razılaşdırırlar.

**Materiallar**
Flipçart, qələmlər və musiqi alətləri (ixtiyari)

**Proses**

1. İştirakçıları bir və ya ikinəfərlik qruplara ayırın.
2. İştirakçıların vəzifəsi öz təməl qaydalarını müəyyən etməkdir – günü ən yaxşı nəticələrlə bitirmək üçün birgə iş bələdçisi hazırlamaqdır (Bunları deyin: "Təməl qaydaların müəyyənləşdirilməsində məqsəd bir-biriniz və ya məndə görmək istəmədiyiniz davranışların qarşısını almaq, görmək istədiyiniz davranışları təşviq etməkdir. Başlanğıc nöqtəsi kimi, keçmişdə iştirak etdiyiniz kurs və ya tədbirlər haqqında düşünün, yaxşı və o qədər də yaxşı olmayan halları xatırlayın. İndi isə yaxşı davranışları təşviq etmək, o qədər də yaxşı olmayanları azaltmaq üçün qaydalar hazırlayın").



**Proses (davamı)**

3. İştirakçılardan qrupları üçün bəzi təməl qaydaları müəyyənləşdirməyi xahiş edin. Lakin onlar bu qaydaları yaddaqalan etməyin yolunu tapmalıdırlar. Məsələn, mahnı, qafiyə, şəkil, hekayə və s. ilə təqdim etməklə.
4. Yeganə qayda budur ki, qaydalar **aydın** və **yaddaqalan** olmalıdır.
5. Onlara 20 dəqiqə vaxt verin.
6. Müddət tamamlandıqdan sonra təkrar bir araya toplanıb növbə ilə hər bir qrupdan təməl qaydaları seçilmiş üsulla açıqlamağı xahiş edin.
7. Hər bir qrup sözünü tamamladıqdan sonra digər qruplardan təklif olunan qaydalarla razılaşıb-razılaşmadıqlarını soruşun. Razılaşdıqları halda, qaydaları imzalamağı xahiş edin.
8. Bütün iştirakçılara, bir təlimçi/vasitəçi kimi, vəzifənizin qrupun bu qaydalara riayətini təmin etmək olduğunu xatırladın.

**Məqsəd nədir?**

Kursun erkən mərhələsində sərhədlərin aydın müəyyən edilməsi vacibdir. Razılaşdırılmış təməl qaydalar bəzən o qədər qeyri-müəyyən olur ki, iştirakçılar onlara əməl etmirlər və vaxt boşa sərf olunur. Heç kim əmin olmadığı qaydaya əməl edə bilməz! Bu çalışma əyləncəli, qaydalar isə aydın **və** yaddaqalandır.

# BİLİK AXTARIŞI



**İcmal**
İştirakçılar qarşılıqlı təqdimatlarına daxil etmək məqsədilə növbəti sessiya ilə əlaqəli maraqlı məqamları müəyyənləşdirərək kurs materialını əvvəlcədən nəzərdən keçirirlər.

**Materiallar**
Bax: 1-ci addım.

**Proses**

1. Minimum aşağıdakılar daxil olmaqla, otağı yüksək keyfiyyətli öyrənmə sessiyası üçün hər zaman tərtib etdiyiniz qaydada hazırlayın:
   - "Xoş gəlmisiniz" afişası;
   - otağın müxtəlif yerlərinə vurulmuş, kursun konsepsiyaları ilə əlaqədar afişalar;
   - maraqlı və rəngarəng dəftərlər;
   - əyani vəsaitlər;
   - paylanmaq üçün çap edilmiş materiallar və s.





**Proses (davamı)**

2. Özünüzü və kursu təqdim edin.
3. İştirakçıları otağa göz gəzdirməyə, maraqlarını cəlb edən hər hansı əşya və ya konsepsiyanı müəyyənləşdirərək haqqında daha çox məlumat əldə etməyə və günün təqdimatına salmağa dəvət edin.
4. İştirakçılara otaqda sərbəstlik verin, başqa sözlə, onlar maraqlarını cəlb edən əşyanı müəyyənləşdirmək üçün sonra təqdim edəcəyiniz materiallara indi baxmaq istəsələr, buna imkan verin!
5. Əşyalar haqqında öyrəndiklərini bir-biri haqqında təqdimatların bir hissəsi qismində istifadə etməyi tapşırın.

**Məqsəd nədir?**

Kursun bu cür əvvəlcədən nəzərdən keçirilməsi iştirakçılarda mövzuya maraq oyadır. Onlar həmçinin günün qalan hissəsində verdiyiniz məlumatlarları filtrləyəcəklər, çünki bu daha əvvəl müzakirə etdikləri əşylarla əlaqəli olacaq.

**Qapanış üçün variasiya**

Bugünkü kursda onların diqqətini çəkən maraq obyektinin nə olduğu barədə sual verin.

# QEYDLƏR



# MÖVZUYA GİRİŞ ÇALIŞMALARI

## MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# GİRİŞ

Bu bölməyə "Mövzuya giriş çalışmaları" adlandırdığımız çalışmalar daxildir. Onlar tərzlərinə görə, "Buzqırma çalışmaları" kitabında göstərilən çalışmalara bənzəyir. Bu çalışmaların əsaslandığı ideya bir-biri ilə tanışlıq quran zaman iştirakçıların fikrini eyni zamanda kursun məzmununa yönəltməkdir.

Çalışmalar həddən artıq ümumi səciyyə daşımaq əvəzinə, kursun məzmunu ilə **əlaqəli** olduqda daha yaxşı nəticə verir. Açılış çalışmalarının kursun məzmunu və ya hətta tərzi ilə əlaqələndirilməsinin tədbirdən qazanılan nəticələri yüksəltdiyinə dəfələrlə şahid olmuşuq.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# QƏTİYYƏTLİLİK

## DÖRD HEYVAN

**Məqsəd**
Qətiyyətliliklə əlaqəli dörd davranışın yaddaqalan edilməsi

**Materiallar**
Oyuncaq bayquş, öküz, qoyun və tülkü (və ya ilan).
Flipçart kağızı

**Öyrənmə**
Dörd tərzin hər birinə dair xarakterik davranışların müəyyən edilməsi. Sizə münasibəti/özünüzü necə hiss etdiyinizi/necə davrandığınızı daha yaxşı əks etdirdiyini düşündüyünüz dörd heyvadan birinin müəyyənləşdirilməsi.

Bunların yazıldığı 4 kart:

| | |
|---|---|
| Mən yaxşıyam, sən yaxşısan. | Mən yaxşıyam, sən yaxşı deyilsən. |
| Mən yaxşı deyiləm, sən yaxşısan. | Mən yaxşı deyiləm, sən yaxşı deyilsən. |



**Təlimçidən tələb olunan biliklər**

Qətiyyətlilik nəzəriyyəsi haqqında praktik iş bilgisi.
Uşaq hekayələrində istifadə edilən heyvan xarakterləri haqqında təsəvvürün mövcudluğu faydalı olsa da, mütləq deyil!

**Proses**

1. Passivlik, aqressivlik və passiv-aqressivlik daxil olmaqla, qətiyyətlilik mövzusunu təqdim edin.
2. Matris əmələ gətirmək üçün flipçart kağızında "çarpaz" işarəsi çəkin və kağızı döşəmənin/masanın üstünə yerləşdirin. Hər xanada biri olmaqla, dörd heyvanı flipçart kağızına yerləşdirin.
3. İştirakçıları dördnəfərlik qruplara bölün və hər bir qrupa matrisdən bir heyvan verin. Hər bir qrupdan öz heyvanına xas xüsusiyyətlərini müəyyənləşdirməyi xahiş edin (uşaq hekayələrinə əsaslanaraq). Heyvanların davranışı hansı qətiyyətlilik davranışına uyğun gəlir?
4. Bunların yazıldığı dörd kartı paylayın: "Mən yaxşıyam, sən yaxşı deyilsən" və s. İştirakçılardan hər bir kartı matris daxilində uyğun gəldiyini düşündüyü heyvanla birlikdə yerləşdirməyi xahiş edin.



**Proses (davamı)**

5. Sonda bu kombinasiya əldə ediləcək:

| | |
|---|---|
| Mən yaxşıyam, sən yaxşısan. | **Bayquş** – Qətiyyətli. İnstinktiv davranışlardan yayınır, sakitliyini qoruyur, faktlara baxır, əsaslandırılmış seçimlər edir, reaksiya deyil, cavab verir. |
| Mən yaxşıyam, sən yaxşı deyilsən. | **Öküz** – Aqressiv. Qarşıdurma halında instinktiv olaraq savaşır, savaşın ən yaxşı özünümüdafiə olduğuna inanır. Başqalarına görə narahat görünmür. Dəlisov və emosionaldır, cavab yerinə, reaksiya verir. |
| Mən yaxşı deyiləm, sən yaxşısan. | **Qoyun** – Passiv. Qarşıdurma halında instinktiv olaraq qaçır, qaçışın ən yaxşı özünümüdafiə olduğuna inanır. Özünə görə narahat görünmür. Sakit, utancaq, üzüyola, cavab əvəzinə, reaksiya verir. |



**Proses (davamı)**



Mən yaxşı deyiləm, sən yaxşı deyilsən.

**Tülkü/İlan** – Passiv-aqressiv. Qarşıdurma halında instinktiv olaraq qaçır, hər hansı birbaşa qarşıdurmada qalib gələ biləcəyinə inanmır. Özünə və başqalarına hörmətlə yanaşmır. Hüquqlarını qorumaq üçün etiraz edəcək qədər özünəhörməti yoxdur (eynilə qoyun kimi), eyni zamanda sənin haqlarını pozmaq istəyir (eynilə öküz kimi). Bunu dolayı yolla edir, tez-tez burnunun altında qəzəblə fısıldadığını, problemləri haqqında danışmalı olduğu şəxsdən başqa, hər kəslə danışdığını görmək mümkündür.

**Məqsəd nədir?**
Bu çalışmadən daha çox söhbətə vasitəçilik üçün alət qismində istifadə edilməlidir, nəinki hər hansı təqdimat zamanı. Bu çalışma fikirlərin paylaşılmasını stimullaşdırmaq üçün nəzərdə tutulub.

**Qapanış üçün variasiya**
Günü təhlil edərkən bu dörd heyvandan istifadə edin.



# QƏTİYYƏTLİLİK

## PLASTİLİN HİSSLƏR

**Məqsəd**
Hisslərin anbaan necə dəyişdiyini, bu dəyişikliklərin qətiyyət bacarığımıza necə təsir göstərdiyini düşünməyə təşviq olunması, dialoq qurulması.

**Öyrənmə**
İştirakçılar öz hisslərini əks etdirən model hazırlayacaq, sonra modellərini izah edəcəklər.

**Materiallar**
Plastilin
Boş ad kartları

**Proses**
1. Hər iştirakçıya bir parça plastilin verin.
2. Hazırda özlərini necə hiss etdiyini düşünərək plastilindən əhvallarını əks etdirən model hazırlamağı xahiş edin.
3. Hər iştirakçıya 12,7 x 7,62 sm ölçüdə kart verib modeli adlandırmağı xahiş edin.





**Proses (davamı)**

4. Hər bir iştirakçıya modelini nümayiş masasına növbə ilə gətirməyi (günün qalan hissəsi boyunca modellər orada qalacaq) və gələrkən modelin hansı hissləri əks etdirdiyini 30 saniyəlik çıxışla izah etməyi tapşırın.
5. Hər bir iştirakçı öz modelini izah edib onu masanın üstünə qoyduqdan sonra bu faktı vurğulayın ki, modellərin köməyilə otaqdakı hər kəsin hisslərinin parlaq və əyani icmalı artıq mövcuddur. Halbuki çox vaxt bu hisslər haqqında fərziyyələr yürüdürük.
6. Modelləri masanın üstündə saxlayın və onlardan gün ərzində insanların davranışları ilə modellər arasında əyləncəli əlaqələr qurmaq üçün istifadə edin.

**Məqsəd nədir?**

Qətiyyətlilik davranışdan başqalarının nə hiss etdiyini başa düşmək üçün istifadə etmək, onlara fikirlərimizin faktlarla müqayisəsini aparmaq üçün keyfiyyətli suallar verməyə imkan yaratmaq deməkdir. Kursunuzda qətiyyətlik təlimi ilə yenicə tanış olan istənilən kəs mövzunun çox *ağır* və *dərin* olduğunu düşünə bilər. Bu açılış çalışmai mahiyyəti tez başa düşməkdə, gün ərzində davranışla hisslər arasında əlaqəni sadə, canlı saxlamaqda və əylənməkdə kömək edəcək!



**Variasiya**
(*Və ya əlavə olaraq*) Hər bir iştirakçıya elastik adam oyuncağı verin (www.thetrainingshop.co.uk saytından əldə etmək mümkündür) və oynaqlarını əyərək hazırkı əhvallarını əks etdirən bədən dili formalaşdırmağı tapşırın. Bu çalışmanı gün ərzində davamlı yerinə yetirməyi xahiş edin: hər dəfə əhvallarının dəyişdiyini aşkarladıqda oyuncağı əyib yuxarı qaldırmalıdırlar. Şən əhvali-ruhiyyə yaradın. Çalışmanı yerinə yetirənlərə mükafat (şirniyyat) verin və ya onları bol-bol tərifləyin. Təhlükəsiz və əyləncəli ab-hava yaranarsa, həvvəssiz iştirakçılar da çalışmaya tezliklə qoşulacaqlar.

**Qapanış üçün variasiya**
İştirakçılara gün və ya kurs haqqında nə düşündüklərini, yaxud nə bildiklərini və ya nə edəcəklərini plastilində əks etdirməyi tapşırın. Əyləncəli qapanış üsulu kimi, bütün modelləri ayrı-ayrılıqda nəzərdən keçirin.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI

# KOMANDALAR



## FİQURLAR

**Məqsəd**
Yüksək performans göstərən komandalar mövzusuna marağın oyadılması.

**Öyrənmə**
Komandaqurma çalışmasının nəticələrinin üzvlərin müxtəlifliyi ilə seçilən komandanın üstünlükləri ilə əlaqələndirilməsi.

**Materiallar**
8 tennis topu (və ya hər hansı eyni formalı fiqur). Üçbucaq, kvadrat, slaym, uzanan plastilin topu və insanların toxunmaq istəməyəcəyini, qoxusunu və ya görünüşünü sevməyəcəyini düşündüyünüz hər hansı qeyri-adi forma daxil olmaqla, 8 fiqur/əşya (Oyuncaq mağazalarının saxta pul bölmələrində hər cür qəribə əşya satılır!)

**Proses**
1. Qrupu ikinəfərlik komandalara ayırın.
2. Komandalardan birinə 8 tennis topunu verin (yaxud eyni formalı başqa fiquru, məsələn, 8 kvadrat bloku).
3. Digər komandaya 8 fərqli predmet verin.
4. Hər iki komandadan verilən materiallarla digər komanda üçün maraqlı ola biləcək nəsə hazırlamağı xahiş edin.
5. Onlara bunun üçün 5 dəqiqə vaxt verin.



**Məqsəd nədir?**
Yaradıcı çalışmanı bitirdikdən sonra komandalara öz işlərini müqayisə etməyi tapşırın. Bir qayda olaraq, müxtəlif obyektlərin verildiyi qrup daha çox seçimə malik olur və adətən, daha maraqlı nəticələr yaradır (Məsələ burasındadır ki, müxtəliflik daha çox seçim və çeşidlilik imkanı təmin edir). Komandalar daxilində özünə bənzər insanları işə qəbul etmək, onların sizi özünə cəlb etməsi asandır, lakin müxtəlif xarakterli insanları cəlb etdikdə daha çox şeyə nail olmaq mümkündür.

**Qapanış üçün variasiya**
Eyni çalışmadan bir daha yararlanın, lakin günün sonunda!





# YENİ RƏHBƏR

## BROŞÜRLƏR

**Məqsəd**
Yeni rəhbər, supervayzer və komanda liderlərinin **işin görülməsindən** uzaqlaşdırılıb işi görən şəxslərin **idarə edilməsinə** yönəldilməsi

**Öyrənmə**
İştirakçılar nəzarəti əldən buraxdıqda özlərini necə hiss etdiyini, başqalarının səlahiyyətlərini genişləndirməyin üstünlüklərini müzakirə edəcək, tapşırığa görə cavabdeh olmaqdan, nəticələrə görə hesabatlılığa keçmək üçün şəxsi strategiyalarını planlaşdıracaqlar.

**Materiallar**
Vərəqləri əvvəlcədən hazırlanmış flipçart
Hər bir iştirakçı üçün kursun broşürü



**Proses**

1. Salamlama hisəssindən, kurs və materialların ilkin təqdimatlarından sonra hər bir iştirakçıya broşür verin və onları bir-biri ilə ünsiyyət qurmağa sövq etmək üçün ikinəfərlik müsahibə üsulundan yararlanın. Məsələn, əvvəlcədən flipçartda yazmalı olduğunuz aşağıdakı format çərçivəsində bir-birini sual-cavab etsinlər deyə, iştirakçılara 15 dəqiqə vaxt verin:
   - Adınız və vəzifəniz?
   - İdarə edilməklə bağlı təcrübəniz nədən ibarətdir?
   - Başqalarını idarəetmə təcrübəniz nədən ibarətdir?
   - İdarəetmə ilə bağlı sevimli xatirəniz hansıdır (yaxşı və ya pis, şəxsi və ya bilinən)?
   - Burada iştirakınız nəticəsində yalnız bir şey əldə edə bilsəydiniz, nəyi seçərdiniz?

2. 15 dəqiqə sonra vaxtın bitdiyini elan edin. Hər bir iştirakçıya tərəf müqabilinin broşürunu götürməyi, səhifə seçməyi, müsahibədən sonra onun haqqında xatırladıqlarını uyğun hesab etdiyi qaydada qeyd etməyi tapşırın. Yeganə şərt yaddaqalanlıqdır. Sonra broşürü geri qaytarmamışdan əvvəl tərəf müqabillərini öyrəndikləri məlumatlar əsasında qrupun qalan hissəsinə təqdim etməyi tapşırın.



**Proses (davamı)**

3. Hər bir təqdimatın sonunda təqdimatçıdan broşürü sahibinə qaytarmağı xahiş edin.
4. Broşürün sahibindən başqasının onun haqqında məlumatları qeydə alıb qrupa təqdim etməsi haqqında nə düşündüyünü soruşun.
5. Məlumatların nə dərəcədə yaxşı əhatə edilməsi və ötürülməsi barədə fikirlərini soruşun.
6. Özləri bunu daha yaxşı edə bilərdilərmi?
7. Bütün müsahibələr tamamlandıqdan sonra yeni rəhbərlərin qarşılaşdıqları çətinliklərlə paralellər aparın. Yeni rəhbər idarəetmə bacarıqlarını (məsələn, planlaşdırma, istiqamətləndirmə, təşkilati işlər və nəzarət) öyrəndikcə işi şəxsən yerinə yetirməkdən uzaqlaşıb başqalarının işi yerinə yetirməsini (fərqli, daha yaxşı, daha pis, daha yavaş, daha sürətli) izləməyə keçməlidir.
8. Plenar iclasda aşağıdakıları müzakirə edin:
   - İşi yerinə yetirmək gücünü başqalarına ötürməyin üstünlükləri nələrdir?
   - Bu üstünlüklər çatışmazlıqlara üstün gəlirmi?
   - Bu istiqamətdə hansı çətinlik və ya əngəllərin olacağını düşünürsünüz?
   - Onların öhdəsindən necə gələcəksiniz?



**Məqsəd nədir?**
Rəhbərlərin çoxu komanda üzvlüyündən yüksək vəzifəyə keçirilir. Bu çalışma yalnız rəhəbərlərə aid olmasa da, xüsusi əhəmiyyət daşıyır. O, insanların və ya komandanın idarə edilməsini tələb edən vəzifəyə keçid üçün adətən, komandada istifadə olunandan fərqli və ümumi nəticəyə töhfə verəcək tapşırıqların tamamlanması ilə əlaqəli müəyyən bacarıqların tələb olunduğunu başa düşməyə kömək edir.




**Qapanış üçün variasiya**
İştirakçıların bu kursda öyrəndikləri nəticəsində yerinə yetirməyi planlaşdırdığı çalışma planını hazırlayıb broşürları dəyişməyi xahiş edin. Hər bir iştriakçıya tərəf müqabilinin çalışma planını onun broşüruna qeyd etməyi tapşırın. Paralelləri yuxarıdakı qaydada aparın.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI

# VAXTIN İDARƏ EDİLMƏSİ



## SİYAHILAR

**Məqsəd**
"Vaxtımdan necə istifadə edirəm?" sualına cavab axtarmağa təşviq olunması.

**Öyrənmə**
İştirakçılar vaxtın boşa sərf edilməsində oynadıqları rolu müəyyən edəcəklər.

**Materiallar**
Əvvəlcədən hazırlanmış flipçart kağızı

**Proses**

1. Bütün təqdimatlar edildikdən, qrupla etimadlı münasibət formalaşdırıldıqdan sonra günün ilk çalışması üçün iştirakçıları üç qrupa ayırın.
2. Qrupdan aşağıdakıların hansı qrup üzvünə aid olduğunu tapmağı xahiş edin (flipçartda yazılmış siyahıdan yararlanın):
   a. Dünyanın bir sıra yerlərinə səyahət edib.
   b. Əntiq əşyaya malikdir.
   c. Hər hansı aborigen dili bilir.
   d. Rusiya ilə əlaqəsi var.
   e. Darıxır.
   f. Adının yazıldığı fincanı olub.
   g. Nə vaxtsa Milad mövzulu sviter geyib.
   h. Restorandan qaçıb.
   i. Məktəbdə cəzalandırılıb.
   j. Harri adlı dostu var/olub.

**Proses (davamı)**

3. Bu çalışma üçün vaxt müəyyən etməyin.
4. İnsanlara istədikləri qədər zövq almaq imkanını verin (ifrata varmadan: ən çox 15 dəqiqə). Sonra vaxtın bitdiyini elan edin.
5. Bu sualları verin: "çalışma haqqında nə düşünürsünüz? Çalışmadan nə əldə etdiniz? Mənası nə idi? Çalışmanın vaxtın idarə edilməsi mövzusu ilə əlaqəsi nədən ibarətdir? Bu çalışmada niyə iştirak etdiniz?"
6. Qrupun bu suallara cavablarında bütün əlaqələri tapa biləcəksiniz. Əks halda, növbəti səhifədə "**məqsəd nədir**" bölməsinə nəzər salın və əlaqəni özünüz aşkarlayın.







**Məqsəd nədir?**
Vaxtı manipulyasiya edə bilməzsiniz, sizin, sadəcə, vaxtınız var. Ondan yararlana (və ya yanlış istifadə edə) bilərsiniz. Uğursuzluq, yoxsulluq, bədbəxtlik və özünüdərk çatışmazlığı üçün plan tələb olunmur; onlardan hər hansı ilə istənilən vaxt qarşılaşa bilərik. Lakin uğur, maddi təminat, xoşbəxtlik, özünüdərk yaxşı plan vasitəsilə qazanıla bilər. Bu, vaxtımızdan necə istifadə edəcəyimizə dair yaxşı plan olmalıdır.

Bu çalışma yoldan sapmağın nə qədər asan olduğunu vurğulayır. Düz ilə yanlışı ayırd etmək gücümüzdən heç də həmişə yararlanmırıq. Vaxtın yaxşı idarə edilməsinin çoxsaylı sütunlarından biri potensial çalışmalar haqqında düşünmək, onları qiymətləndirmək və özümüzə bu sualı verməkdir: "Bu çalışma məqsədlərimlə nə dərəcədə üst-üstə düşür?"

**Variasiya**
Otaqdakı heç kimin məqsədləri ilə əlaqəsi olmadığı açıq-aşkar bilinən hər hansı mənasız çalışmadan istifadə edin.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# TƏQDİMAT BACARIQLARI

## CAMAŞIRXANA

**Məqsəd**
Təqdimat nəzəriyyəsi haqqında baxışın formalaşdırılması

**Öyrənmə**
Təqdimat bacarıqlarını qiymətləndirmək üçün analogiyadan istifadə olunması

**Materiallar**
Tələb olunmur.

**Proses**

1. Təqdimatınızın əvvəlində təqdimat bacarıqları haqqında baxış formalaşdırmaq üçün aşağıdakı analogiyadan istifadə edin:
   Təqdimata gələn insanlar təqdimat müddətində sehrini göstərməsi üçün zehinlərini təqdimatçıya həvalə edirlər. Bu, geyimlərinizi camaşırxana işçisinə təqdim etmək kimidir.
   Təqdimatçı camaşırları yuyan şəxsdir:
   - Maşına həddən çox geyim yerləşdirə bilərsiniz.
   - Hədsiz yüksək və ya lap aşağı temperatur seçə bilərsiniz.
   - Yuyucu vasitəni hədsiz çox və ya lap az əlavə edə bilərsiniz.
   - Müddəti hədsiz çox və ya lap az təyin edə bilərsiniz.
   - Müxtəlif rəngli camaşırları qarışdıra bilərsiniz.



**Proses (davamı)**

2. Xətləri cızın:
   - həddən artıq məlumatın daxil edilməsi;
   - həddən artıq entuziazmın və ya süst vəziyyətin nümayiş etdirilməsi;
   - "PowerPoint" və ya videoyazı kimi multimedia vasitələrindən ifrat istifadə olunması;
   - təqdimatın vaxt nöqteyi-nəzərindən düzgün planlaşdırılmaması;
   - auditoriya haqqında yanlış mühakimə yürüdülməsi.




Hərçənd işinizi bilirsinizsə (etiketi oxumusunuzsa), əsas qaydalara əməl edirsinizsə, paltarlar məhz nəzərdə tutduğunuz kimi olacaq.



**Məqsəd nədir?**
Hekayə təqdimatı hər kəsin özü ilə əlaqələndirə biləcəyi çərçivəyə yerləşdirməyə yardım edir. Ondan kurs zamanı edilən hər hansı kiçik təqdimatın sadə, başa düşülən və əyləncəli olması üçün istifadə edə bilərsiniz. Aşağıdakı kimi suallar verə bilərsiniz:

- Biz – auditoriyanız geyim olsaydıq, indi, yəni təqidmatınızın sonunda (yuma dövrəsinin) vəziyyətimizi necə təsvir edərdiniz?
- Üstümüzə etiket vurulsaydı, nə yazılmış olardı (camaşırların yuyulması üçün təlimatlar)?
- Təqdimatın pozitiv hissələrinə istinadən: Buna nail olmaq üçün nə etdiniz/nə dediniz? *(Temperaturu düzgün seçib/müddəti düzgün təyin edib/həddən çox camaşır yerləşdirməyib və s.)*

**Variasiya**
Əlaqələri iştirakçıların özlərinin qurmasına nail olun. Düzgün və ya səhv cavab yoxdur. Bütün cavablar keçərlidir.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# TƏQDİMAT BACARIQLARI

## "ABCÇ"

**Məqsəd**
Təqdimata özünəəminlik hissi ilə başlanması

**Öyrənmə**
Özünü təqdim etmək üçün "ABCÇ" formatından istifadə
Təqdimata başlamaq üçün "ABCÇ" formatından istifadə

**Materiallar**
Aşağıdakıların əvvəlcədən yazıldığı flipçart:
*A. Özünüz haqqında bir heyrətamiz fakt söyləyin.*
*B. Bu kursdan nə əldə edəcəyinizə ümid bəsləyirsiniz?*
*C. Təqdimatçı olaraq, özünüzü 10 ballıq şkala ilə necə qiymətləndirərdiniz, nə üçün?*
*Ç. Bu gündən sonra yeni qazandığınız bacarıqları təcrübədə nə vaxt və necə tətbiq etməyi planlaşdırırsınız?*



**Proses**

1. Kursun başlanğıcında flipçartda əvvəlcədən yazdığınız formatdan yararlanaraq iştirakçılara özlərini qrupa təqdim etmək təlimatını verin.
2. Bütün təqdimatlar həyata keçirildikdən sonra özünüzdən razı şəkildə iştirakçılara bildirin ki, elə indicə əksər məşhur təqdimatçıların öz təqdimatına başlamaq üçün yararlandığı üsuldan istifadə ediblər.
   Dəqiq desək:
   A – Diqqət (auditoriyanızın diqqətini cəlb edin)
   B – Üstünlüklər (onlara sizi dinləməklə nə əldə edəcəklərini söyləyin)
   C – Xarakteristika (özünüzü satın – auditoriyanız nəyə görə sizi dinləməlidir?)
   Ç – İstiqamət (təqdimatınızın planlaşdırılan gedişatını aydınlaşdırın – auditoriyalar sürprizləri sevmir!)
3. Belə deyə bilərsiniz: "Yeganə fərq budur ki, bu üsuldan təqdimat etməkdən daha çox, özünüzü təqdim etmək üçün mexaniki şəkildə yararlandınız. Prinsip eynidir".



**Məqsəd nədir?**

"ABCÇ" formatını xatırlamaq o qədər asandır ki, hətta gözlənilməz təqdimatlar zamanı belə, özünəinam qazandırır. Bu çalışma insanların bu formatdan yararlanıb onun yaratdığı özünəinamı hiss etmələrini təmin edir. Bu formatdan hər hansı təqdimatın başlanğıcını formalaşdırmaq üçün istifadə edilə bilər (Bir qayda olaraq, onun ardınca əsas hissə və sonluq gəlir).

**Variasiya**

Bu prosesdən yararlanaraq özünüzü təqdim edin, iştirakçılardan dediklərinizdə hər hansı qanunauyğunluğu görüb-görmədiyini və ya istifadə olunan üsulların onlara tanış gəlib-gəlmədiyini soruşun. Cavabın mənfi olduğu təqdirdə, onlara nə deyəcəyinizi xatırlamaq üçün "ABCÇ" formatından necə isitfadə etdiyinizi açıqlayın.

## MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# KOUÇİNQ

## YÜNGÜL ATLETİKA

**Məqsəd**
Təlim iştirakçılarını özlərini kouçinq xidməti göstərilən şəxslərin yerinə qoymağa təşviq etməklə kouçinq perspektivinin formalaşdırılmasına yardım göstərilməsi

**Öyrənmə**
Kouçinq alan şəxsin güclü tərəfləri üzərində işləməyin üstünlüklərinin müzakirəsi

**Materiallar**
Kağız və qələmlər

**Təlimçidən tələb olunan biliklər**
Biznes sahəsində kouçinq prinsipləri haqqında baza bilik səviyyəsi

**Proses**

1. Hər iştirakçıya bir kağız verin.
   Hər kəsə məktəb illərində məşğul olub uğur qazandıqları və ya zövq aldıqları idman növü, yaxud hər hansı çalışmanı kağıza qeyd etməyi tapşırın.
2. Bütün kağızları yığın.
3. Heç kimə öz kağızını verməmək şərtilə, kağızları iştirakçılar arasında paylaşdırın.
4. İştirakçıları ikinəfərlik qruplara ayırın. Onlara kağıza qeyd olunmuş sahədə təkmilləşmək üçün bir-birinə kouçluq etməyi tapşırın.



**Məqsəd nədir?**
İşini görmək istəməyən insana kouçluq edə bilməzsiniz! Kouçinq insanlara tapşırığı yerinə yetirmək və ya seçdiyi məqsədə nail olmaq üçün potensialını maksimum dərəcədə yüksəltməkdə kömək etmək üçün əla vasitədir. Kouçinq bacarıqlarından effektiv şəkildə yararlanmaq üçün kouçinq xidmətinin göstərildiyi şəxs uğur qazanmaq istəməli və kouçinqin təmin edildiyi sahədə bəzi bacarıqlara malik olmalıdır.

Qısası, insanların **sizin** deyil, **öz** istədikləri sahələrdə uğur qazanması üçün kouçluq edin. Zəif tərəflərini düzətlməyə çalışmaq əvəzinə, güclü tərəflərin üzərində dayanmağa vaxt sərf edin.



MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# KOUÇİNQ VƏ YA SUALVERMƏ BACARIQLARI

## 80/20

**Məqsəd**
İştirakçılara soruşmaqla demək arasındakı fərqi öyrənməkdə yardım göstərilməsi

**Öyrənmə**
80/20 nisbətinin, əslində, necə olması

**Materiallar**
İştirakçıların üçnəfərlik qruplarda işləməsi üçün yetərli sayda saniyəölçən

**Proses**

1. Üçnəfərlik qruplarla sualvermə bacarıqlarına dair kouçinq və ya məşq sessiyasını başladın.
2. Kouç, kouçinq alan şəxs və müşahidəçi rollarını paylaşdırın.
3. Müşahidəçi kouçun hər danışdığı müddəti qeyd edir və kouçun danışdığı ümumi müddəti yazır.
4. Sonda sessiyanın ümumi müddətini kouçun danışdığı müddətə bölün; beləcə, kouçun danışdığı müddətin təqribi faizini müəyyən edəcəksiniz.
5. İştirakçılara bildirin ki, məqsəd kouçun vaxtın 20 %-i qədər danışmasına nail olmaqdır.



**Məqsəd nədir?**
Bu faəliyyət iştirakçıları buna vadar edir ki, diqqəti nə qədər danışdıqlarına və vaxtın 80 %-ni dinləməyə sərf etməyin, əslində, necə hiss olduğuna yönəltsinlər.

**Variasiya**
Vasitəçilik bacarığı kurslarında vasitəçinin nə qədər müdaxilə edə biləcəyini müəyyənləşdirmək üçün bundan yararlanın.

**Qapanış üçün variasiya**
Bundan iştirakçılar üçün yekun test kimi və ya gün ərzində istənilən vaxt istifadə oluna bilər.



MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# ÜNSİYYƏT BACARIQLARI

## AXMAQ BİR SUAL VERİN

**Məqsəd**
İştirakçılar bir sıra sual növləri haqqında anlayışlarını yoxlayırlar.

**Öyrənmə**
Müxəlif sual növlərinin müəyyən edilməsi və soruşulması

**Materiallar**
Sual növlərindən ibarət siyahı (təlimçi üçün ipucları kimi). Əvvəlcədən hazırlanmış, üzərində addımlamaq üçün nəzərdə tutulmuş 10 daşdan ibarət dəstlər (kağızdan da istifadə edə bilərsiniz!)

**Proses**

1. Təlim sessiyasının sonunda qrupunuzu iki komandaya ayırın.
2. Daşlardan ibarət iki dəsti otağın bir hissəsindən digər hissəsinədək düzün. Oyunun məqsədi komandanın digər komandaya müəyyən növ suallar verməklə öz üzvlərindən birini daşlar vasitəsilə otağın digər hissəsinə keçirməkdir.
3. Təlimçi bu çalışmanı bu cür təlimatlar verməklə idarə edir, məsələn: "A komandası, sizin B komandasına kursla əlaqəli açıq sual verməyinizi istəyirəm".
4. A komandası düzgün sual növündən istifadə etdikdə bir addım irəliləyir. B komandası hələlik olduğu yerdə qalır!



**Proses (davamı)**

5. Sonra komandalar yer dəyişirlər.
6. İndi də B komandasından A komandasına müxtəlif növ suallar verməyi xahiş edirsiniz, məsələn, əlbəttə ki, kursla əlaqəli mücərrəd bir şey haqda. Verilən sual sizi qane edərsə, komandanın üzvü bir addım irəliləyir.

**Sual növləri**

"x" komandasına **çoxvariantlı** cavab seçimi olan sual verin.
"x" komandasına **açıq** sual verin.
"x" komandasına **qapalı** sual verin.
"x" komandasına **dəqiqləşdirici** sual verin.
"x" komandasına **məqsədyönlü** sual verin.
"x" komandasına **düşündürücü** sual verin.
"x" komandasına **mücərrəd** sual verin.
"x" komandasına **ritorik** sual verin.
"x" komandasına **aydınlaşdırıcı** sual verin.
"x" komandasına **istiqamətləndirici** sual verin.
"x" komandasına **axmaq** sual verin.

**Məqsəd nədir?**

Suallardan istifadəni məşq etməklə kurs məzmununun təkrarlanması

**Qapanış üçün variasiya**

Təlimçi komandadan sual verməyi xahiş etmək əvəzinə, kurs haqqında suallar verə və ya hər bir komanda üçün tapşırıqlar müəyyənləşdirə bilər.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# MÜXTƏLİFLİK

## FOTOROBOT

**Məqsəd**
KİV-də tez-tez rast gəlinən şəkillərin tapılması və müzakirə olunması

**Öyrənmə**
Məqbul olanlar və olmayanlar

**Materiallar**
Müxtəlif jurnallar (ən yaxşı nəticə üçün kişilər, qadınlar, etnik azlıqlar, yeniyetmələr və başqa konkret qruplar üçün nəzərdə tutulan fərqli jurnallar seçin) Yapışqan, bir neçə qayçı, flipçart

**Proses**

1. Qrupunuzu üç komandaya bölün və hərəsinə bir yığın jurnal verin.
2. İştirakçılardan nə iləsə məşğul olan insanların şəkillərini tapıb kəsməyi, sonra flipçart kağızına yapışdırmağı xahiş edin.
3. Onlardan şəkillərə baxıb suallara cavab verməyi xahiş edin:
    - İnsanlar bu jurnallarda necə təsvir olunublar?
    - Bu şəkillərdəki insanlara baxdıqda nə düşünürsünüz?
    - Onlar hansı işin öhdəsindən yaxşı gələrdilər?
    - Kimə etibar edərsiniz? Kimdən lap az xoşunuz gəlir? Niyə? Sevimliniz kimdir? Niyə?
    - Bu şəkillər həqiqəti əks etdirirmi?
4. Müzakirə üçün şərait yaradın.



**Məqsəd nədir?**
Mediada təsvir edilənləri kor-koranə qəbul etmək asandır. Bunun yanlış olduğu, deyilməsə belə, məlumdur. Problem də elə ondadır ki, bunun yanlış olduğu ifadə edilmir. Bu sessiya rastınıza çıxa biləcək potensial olaraq təqhqiramiz şəkillər haqqnda fərqindəliyi artırmaq üçün nəzərdə tutulub. Digər tərəfdən, bu, insanlara *xəttin* harada *olduğunu* müəyyən etməyə, xətti keçib təhqirə yol verdikdə bunun fərqində olmağa imkan verir.

**Variasiya/əlavə suallar**
- Şəkillər insanları həqiqətə uyğun şəkildə əks etdirirmi?
- Kimsə strereotipləşdirilibmi?
- Kişilərin/qadınların müəyyən peşələrə üstünlük verdiyi əks olunubmu?
- Bəs gey, əlil və ya fərqli etnik mənşəyə mənsub olan insanların şəkilləri?
- Şəklin götürüldüyü reklam və ya jurnalın gündəliyi nədən ibarətdir?

**Qapanış üçün variasiya**
Eyni formatı bir qapanış şərhi əlavə edərək yerinə yetirin: "Real dünyaya yenidən qayıtmağa hazırlaşarkən ödənişsiz təmin edilən bu ədəbiyyata nəzər salın. Şərhlərinzi eşitmək istərdim".

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# TƏLİMÇİLƏRİN TƏLİMİ

## SALAMLAMA

**Məqsəd**
Təlim otağında pozitiv əhvali-ruhiyyənin yaradılması

**Öyrənmə**
Kurs iştirakçılarının şəxsi evə gələn qonaqlarla müqayisəsi və qarşılama atmosferi üçün məsləhətlərin hazırlanması

**Materiallar**
Flipçart və qələmlər

**Proses**

1. Flipçartda bunları yazın: "Evinizdə qonaqları qarşılamaq üçün əsas etibarilə nə edirsiniz? Əvvəlcədən və qonaqlar gəldikdən sonra nə edirsiniz?"
2. İştirakçılardan öz sözlərindən istifadə edərək sualları cavablandırmağı, cavabları flipçartda sıralamağı xahiş edin.
3. Sonra hər kəsin görməsi üçün vərəqi yapışdırın və növbəti vərəqin yuxarı hissəsində yazın: "Kurslarımızda insanları salamlamaq üçün nə edirik?"
4. Qrupa siyahı tərtib etmək üçün birinci təkliflər dəstini ikinci ilə əlaqələndirməyi tapşırın. Məsələn, kimsə "göstərişləri vermək üçün əvvəlcədən zəng" təklifini irəli sürərsə, bunun kursla əlaqəsini soruşa bilərsiniz. Cavab belə ola bilər: "Kursa qoşulmaq üçün yaxşı təlimat göndərdiyimə əmin olmaq istərdim".



**Məqsəd nədir?**
İşə yeni başlayan təlimçilər həyəcanlı ola, buna görə də kursun əvvəlində özləri ilə bağlı narahatlıq keçirə bilərlər. Təcrübəli təlimçilər iştirakçıların kursa gələrkən nə qədər həyəcanlı, laqeyd, həvəsli, usanmış və s. ola biləcəyini asanlıqla unuda bilərlər. Bu çalışma iştirakçıları gələcəkdə təlim keçəcəkləri şəxslər haqqında, eləcə də onların yaxşı qarşılandığını hiss etmələri üçün nə iş görməli olduqlarını düşünməyə təşviq edəcək.

**Variasiya**
İştirakçılardan tövsiyə siyahısının hazırlanmasının və siyahıya belə bir sualın daxil edilməsinin mənasının nə olduğunu soruşun. Gərək ki, onlar əlaqəni özləri müəyyən edəcəklər.

**Qapanış üçün variasiya**
Onların bu kursun nəticəsi olaraq, iştirakçıların qeydinə qalmaq üçün nə etməyə hazırlaşdığını soruşun.



# TƏLİMÇİLƏRİN TƏLİMİ

## JONQLYOR

**Məqsəd**
Yanaşma, bilik və bacaırq konsepsiyasının həyata keçirilməsi

**Öyrənmə**
Jonqlyorluqdan istifadə edərək, bir təlimçi kimi, yanaşma, bacarıq və biliklərinizi qiymətləndirmək şansı qazanırsınız. Jonqlyorluğu bacarmağınıza ehtiyac yoxdur.

**Materiallar**
Jonqlyorluq üçün toplar, flipçart kağızları, markerlər

### Proses

1. "Yanaşma", "Bacarıq" və "Bilik" sözlərinin ayrı-ayrılıqda yazıldığı üç flipçart kağızını müvafiq yerə bərkidin. Hər birində yuxarı sağ küncdən (burada "Yüksək" sözünü yazın) aşağı sol küncə (burada "Aşağı" yazın) bir xətt çəkin. İştirakçıların yaxınlaşıb, bir təlimçi kimi, özlərini başqalarına öyrənməkdə yardımçı olmağa **yanaşma**, başqalarının ən yaxşı necə öyrəndikləri haqqında **bilik** və öyrənməkdə yardım etmək **bacarıqları** nöqteyi-nəzərindən necə qiymətləndirdiyini markerlə göstərməyi xahiş edin.
2. Könüllü bir iştirakçı tapın. Jonqlyor toplarını yuxarı qaldırıb qrupa jonqlyorluq öyrənmək istədiyinizi, təəssüf ki, bu vaxta qədər etibarlı bir təlimçi tapmadığınızı söyləyin. Könüllüdən növbəti 3 dəqiqə ərzində sizə jonqlyorluq öyrənməkdə yardımçı olmağı xahiş edin!



**Proses (davamı)**

3. Eynilə sizə deyildiyi kimi hərəkət edin, sizə verilən sualları cavablandırın, ümumiyyətlə, növbəti bir neçə dəqiqə ərzində yaxşı şagird olun.
4. Vaxt tamamlandıqdan sonra qrupdan könüllünü alqışlamağı xahiş edin. Könüllüdən, sonra da qrupdan daha yaxşı öyrənməyə yardım üçün nə etdiklərini soruşun. Onların cavabları ilə yaxşı təlim/vasitəçilik/kouçinq təcrübəsi arasında paralellər aparın.
5. Könüllüdən 3 flipçart kağızını təkrar nəzərdən keçirməyi və bu götür-qoydan sonra şəxsi qiymətləndirmələrindən hər hansını dəyişməyi xahiş edin. Qrupdan da eyni xahişi edin (qeyd: könüllü 3 kağıza da dəyişiklik edə bilər, lakin qrup bacarıqları dəyişməməlidir, belə ki, passiv şəkildə əyləşmək yanaşmanı dəyişə, biliyi artıra bilsə də, bacarığı təkmilləşdirmir).



**Məqsəd nədir?**

Bu çalışma rəy, öyrənmə tərzləri, öyrənmə dövrəsi, təlimin effektivliyinin qiymətləndirilməsi, təlimin keçilməsi tərzləri, metodları və s. daxil olmaqla, "Təlimçilərin təlimi" kursunda yer verə biləcəyiniz mövzularla əlaqəni əhatə edir.

MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# KEYFİYYƏT

## HƏR ŞEYDƏN ÜSTÜNDÜR

**Məqsəd**
Keyfiyyətin və davamlı inkişafın əhəmiyyətinin önə çəkilməsi

**Öyrənmə**
Keyfiyyət hər yerdədir.

**Materiallar**
Bir paket peçenye, tənəkə qab

**Proses**

1. Paketi hər kəsin qarşısında təntənə ilə açıb peçenyeləri tənəkə qaba tökün.
2. Otaqda gəzişərək hər bir iştirakçıya peçenyedən təklif edin  (hələ yeməməyi xahiş edin).
3. Peçenyeni əldə saxlamağı xahiş edin, sonra soruşun: "Hamısı eyni görünürmü? Peçenyedən bir dişlək alın – dadı əvvəllər yediyinizlə eynidirmi? Dadının eyni olacağını gözləyirdinizmi?"
4. Diqqətə çatdırın ki, ölkədəki və bütün dünyadakı hər mağazada, hər rəfdə, hər paketdə hər bir biskvit növü eyni olmalıdır! Bu, keyfiyyətin əhəmiyyətini nümayiş etdirir. Yaxşı, bəs bunun bu gün bizimlə nə əlaqəsi var?

**Məqsəd nədir?**
Bu, keyfiyyət mövzusunu mürəkkəblikdən sürətlə çıxarıb insanların özləri ilə əlaqələndirə bildiyi bir məsələyə çevirir.

**Variasiya**
Hmm... Başqa növ və ya vanilli peçenyelərdən istifadə edin!

**Qapanış üçün variasiya**
Eyni çalışmadan günü güclü təəssüratla bitirmək üçün istifadə edə bilərsiniz.





## MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# DİNLƏMƏ BACARIQLARI

## MUSİQİ KİMİ, ZÖVQÜMÜ OXŞAYIR

**Məqsəd**
Diqqətli dinləmə

**Öyrənmə**
Musiqi dinləyərkən istifadə olunan bacarıqların insanları dinləyərkən istifadə edilən bacarıqlarla əlaqələndirilməsi

**Materiallar**
Maqnitofon
Musiqi ("The Specials" musiqi qrupunun "Ghost Town" və ya "The Beatles" qrupunun “Let it be" mahnılarını təklif edirik. Əsas odur ki, yaxşı bilinən və birdən artıq musiqi alətinin istifadə olunduğu mahnı seçilsin)

**Təlimçidən tələb olunan biliklər:**
Aktiv/ümumi dinləmə bacarıqları

**Proses**
1. Musiqini səsləndirməyə hazır olun.
2. Onun ifasında istifadə edilmiş musiqi alətlərinin sayı qədər qrup yaradın.
3. Hər qrupa diqqətini cəmləşdiricəyi bir musiqi alətini həvalə edin.
4. Onlardan **yalnız** özlərinə həvalə olunmuş musiqi alətini izləməyi və alətin ifasına diqqət yetirməyi xahiş edin.
5. Sonda onlardan bütövlükdə musiqinin necə səsləndiyini soruşun.

**Məqsəd nədir?**
Məsələ burasındadır ki, dinləmə bacarıqlarınızı məşq etmək istəyirsinizsə, üsulun bir hissəsi bundan ibarətdir ki, dinlədiyiniz musiqi xaricində diqqət dağıdan bütün amillər kənarlaşdırılsın. Oynaq pop musiqisinə qulaq asarkən yalnız əsas musiqi alətinə diqqət yetirməli olsanız da, diqqətin başqa alətlərin ifasına yönəlməməsi çətindir.





MÖVZUYA GİRİŞ ÇALIŞMALARI



# BELBİNİN KOMANDA ROLLARI

## GƏLİN GƏZİNTİYƏ ÇIXAQ

**Məqsəd**
Belbinin komanda rolları və xüsusiyyətlərinin kurs iştirakçıları üçün yaddaqalan olmasının təmin edilməsi

**Öyrənmə**
Bir hekayənin obrazlarının Belbinin komanda rolunun hər biri ilə uyğunlaşdırılması

**Materiallar**
Hər bir Belbinin hər bir komanda rolunun xüsusiyyətlərinin qısa icmalını ehtiva edən 9 kartdan ibarət 2 dəstə Vərəqin hər iki tərəfini əhatə edən hekayə

**Təlimçidən tələb olunan biliklər:**
Belbinin komanda rolları haqqında əsas biliklər

**Proses**
1. Hekayəni entuziazmla danışın!
2. İştirakçıları iki qrupa ayırıb hərəsinə bir tam kart dəsti verin.
3. Onlara hekayədəki obrazları hər bir komanda rolunun xüsusiyyətləri ilə uyğunlaşdırmağa çalışmağı tapşırın.



**Proses (davamı)**

4. Cavabları müzakirə edin (əyləncəli əhvali-ruhiyyəni qoruyub saxlayın, belə ki, iştirakçılar düzgün cavabları tapmaqla deyil, əlaqələri axtarmaqla öyrənəcəklər).
5. Qrupa sessiya ilə əlaqəli, Belbinin komanda rolları haqqında məlumatları yada salmaq üçün daim qeydlərə baxmaq ehtiyacını aradan qaldıracaq qəribə hekayə danışacağınızı izah edin. İştirakçılara hekayədə üç fərqli yerə gedərək (ofis, yerli idman zalı və yerli pab) hər birində 3 obrazla qarşılaşacağını bildirin.

## Ofis

(İdeya yaradıcısı)
Burada pırpız saçı, uzun ağ paltosu ilə Eynşteynə bənzəyən bir insanla tanış olacaqsınız. O, pəncərədən buludları seyr edir və dərin düşüncələrə dalıb. Onu çağırırsınız, lakin sizi eşitmir. Sonra çırtma çalır, başı üzərində işıq lampası peyda olur və o deyir: "Tapdım!"

(Nəzarətçi-qiymətləndirici)
Ofisin digər tərəfində uzun qara xələt geymiş, hakim pariki taxmış adam dayanıb. O, alkoqolsuz içki içir, sakitcə dayanıb ofisdəki bütün məlumatları toplayır, arabir burnunun altında "*hmmm*" deyə mızıldanır.

(Mütəxəssis)
Masa arxasında əyləşmiş bir qadın  kitaba aludə olub. Bu çox nadir kitabdır, cəmi üç nüsxəsi mövcuddur. Kitab qalın ensiklopediya boydadır, cildi parlayır. Elə təəssürat yaranır, sanki kainatın açarı onda gizlidir. Qadınla söhbət etməyə cəhd edirsiniz, lakin o, laqeyd qalır. Ta ki siz kitab və onun məzmunu haqqında sual verənə qədər. Onda qadın şövqlə danışmağa başlayır və siz söhbəti izləməkdə çətinlik çəkirsiniz.







## Pab

(Koordinator)
Yerli paba daxil olduqda hündürboy, yetkin yaşa çatmış, qara saçları arxaya daranmış, dirijor kimi geyinmiş bir insan görürsünüz. O sizi özünəəmin şəkildə salamlayır, əli ilə işarə edərək daha iki nəfərin əyləşdiyi masaya yönləndirir. Onlara qoşulursunuz.

(Komanda üzvü)
Masa arxasında çəkingən təsir bağışlayan, nəhəng qulaqlı bir obraz əyləşib, az alkoqollu pivə içir. O, qarşısındakı şəxsi hədsiz empatiya hissi ilə dinləyir və onunla mülayim səslə danışır. Ona komanda üzvlərinin az bilinən istedadlarından bəhs edir.



(Resurs araşdırmaçısı)
Üçüncü şəxsin işinə nəhəng telefonuna gələn zəng mane olur. O, telefonla şövqlə danışır, böyük həvəslə suallar verir, cavabları qeyd edir. Telefonuna gələn başqa bir zəngi qəbul etmək məqsədilə həmsöhbətindən onu xətdə gözlətmək üçün izin istəyir və bu söhbəti də eyni axıcılıqla idarə edir.

## İdman zalı



(İşin tərtibatçısı)
İdman zalına yaxınlaşdıqca qışqırıq səsləri eşidir, tezliklə səslərin sizə yönəldiyini başa düşürsünüz. Uşaq kitablarında təsvir edilən sirk rinqmeysterlərini xatırladan şlyapalı, qırmızı pencəkli, ağ şalvarlı, qara çəkməli, əli qamçılı bir kişi saatına baxıb sizə deyir: "Gəlin görək, siz bir saat əvvəl burada olmalı idiniz". Sonra da əlindəki qamçını yerə çırpıb sizi idman zalına tələsdirir.

(İşin icraçısı)
İçəridə qamətli, sərt baxışlı bir kişi var. Köynəyinin qollarını çırmalayıb, bir əli ilə dişli çarxı çevirir, çarx da, öz növbəsində, daha bir neçə çarxı fırladır. Digər əlində baş tərəfinə "Hədəflər" yazılmış uzun bir vərəq var. O, dişli çarxı hər çevirdikcə səhifədəki bir sətrin üstündən məmnun ifadə ilə xətt çəkir. Tərləsə də, işinə çox aludədir və dayanmaq fikrindən uzaq görünür.

(İşi tamamlayan)
Otaqda yavaş-yavaş gəzişdikcə əlində nəhəng lupa tutmuş qadını görürsünüz. O, idman zalında hər şeyin işlək vəziyyətdə olub-olmadığını öyrənmək məqsədilə avadanlıqların hər bir detalını yoxlamaq üçün lupadan istifadə edir. Qadın tələşlı görünür və tozu silərkən, yaxud yerdən tük götürərkən çarxı çevirəndən dayanmağı tez-tez xahiş edərək onu qıcıqlandırır.



## Məqsəd nədir?

Bu yaddaqalan hekayə Belbinin komanda rollarının xüsüsiyyətlərini iştirakçıların zehnində möhkəmləndirmək məqsədini daşıyır. Xüsusiyyətləri xatırlamaq üçün tanış yer, obraz və metofarlarla əlaqələndirilmiş hekayədən istifadə olunur, məsələn:

**Ofis**

- İdeya yaradıcısı – Eynşteyn, dərin fikrə dalma, işıq lampası
- Nəzarətçi-qiymətləndirici – hakim pariki, alkoqolsuz içki
- Mütəxəssis – çox nadir kitab, laqeyd görünüş

**Pab**

- Koordinator – dirijor, özünəəmin ton
- Komanda üzvü – nəhəng qulaqlar, pivə, empatiya
- Resurs araşdırıcısı – nəhəng mobil telefon, entuziazm, suallar

**Gym**

- İşlərin tərtibatçısı – sirk aparıcısı, qamçı
- İşin icraçısı – qollar çırmanıb, fırlanan dişli çarxlar
- İşi tamamlayan – nəhəng lupa, detallar, təşviş

Həmçinin rollar bu kateqoriyalara ayrılır:
**Ofis**: Zehni işlər **Pab**: İnsanlarla iş **İdman zalı**: Fiziki işlər

## Qapanış üçün variasiya

İştirakçılara Belbin rollarını təsvir etmək üçün öz hekayələrini yazmağı tapşırın.



# "NÖVBƏTİ ADDIM" QAPANIŞ ÇALIŞMALARI

## “NÖVBƏTİ ADDIM” QAPANIŞ ÇALIŞMALARI



# GİRİŞ

Girişdə qeyd olunduğu kimi, istifadə etdiyimiz bütün çalışmalar sessiyaları başlatmaq və ya yekunlaşdırmağa uyğunlaşdırıla bilər. Növbəti fəsil sessiyaların sonunun düşünülərək tərtib olunduğu çalışmaları ehtiva edir. Əsas məqsəd “Kursu bitirib işə qayıtdıqdan sonra nə etməyi planlaşdırırsınız?” kimi həzin ruhlu suala bir qədər maraq qatmaqdır.

Bəzi nümunələr:

### *1. Üç sual*

İştirakçılardan bu sualları cavablandırmağı xahiş edin:

- Kursdan əldə etmək istədiyiniz 3 nəticə hansıdır? Onları əldə etdinizmi?
- Kursun digər iştirakçılarına təklif edə biləcəyiniz 3 şey nədir? Onları təklif etdinizmi?
- Özünüz haqqında öyrəndiyiniz, kursla müəyyən dərəcədə əlaqəsi olan üç faktı söyləyin.

## *2. "Alo, Operator!"*

- İştirakçılardan telefon kitabçasının biznes bölməsindən təsadüfi bir nömrə seçməyi xahiş edin.
- Daha sonra onlar nömrəyə zəng etməli, telefon xəttindəki əsrarəngiz insanla kursdan sonra nələri fərqli şəkildə yerinə yetirəcəkləri haqqında mümkün qədər uzun müddət söhbət etməlidirlər.
- Ən uzun müddət ərzində söhbət edə bilən şəxsi mükafatlandırın.



**Variasiyalar**

- İştirakçılardan öz rəhbərlərinə zəng vurub onlara planları barədə danışmağı xahiş edin.
- Onlardan qohum, həyat yoldaşı və ya dostlarına zəng vurub kurs haqqında danışmağı xahiş edin.
- "Dəqiq vaxt" xidmətinə zəng vurub yalandan söhbət etmək təklifini irəli sürün!



### *3. Sövdələşin*

İştirakçılardan danışıqların aparılması və ya satış mövzulu kursdan sonra bir həftə müddətində aşağıdakıları yerinə yetirməklə söz verməyi xahiş edin:

- mərkəzi küçədə yerləşən bir mağaza ilə danışıqların aparılması;
- telefon vasitəsilə danışıqların aparılması;
- işçi heyəti üçün restoranda yemək porsiyaları barədə danışıqların aparılması!

Məqsəd insanların uğursuz nəticələrə vərdiş edərək uğursuzluq qarşısında emosional dözümlülük formalaşdırmasıdır.

### *4. Bu da mənim vədim*

İştirakçılardan kursu bitirdikdən sonra yerinə yetirəcəkləri ilə bağlı vəd verməyi xahiş edin. Onlar sözünü bitirdikdən sonra vədi yaddaqalan etmək üçün "Pledge" (vəd) markalı sprey təmizləyici vasitədən püskürdün!

Xəbərdarlıq! Vasitəni haraya püskürtdüyünüzə diqqət yetirin!



### *5. Şəkil üçün poza*

- Kursdan əvvəl iştirakçılardan səliqəsiz iş masalarının və ya yaxşı işləməyən komandalarının (və ya üzərində işləmək istədikləri sahəni təcəssüm etdirən başqa bir şeyin) fotoşəklini çəkməyi və kursa gətirməyi xahiş edin.
- Onlardan təqdimatlar zamanı günün sonunda nəyə nail olmaq istədikləri haqqında söhbət üçün, vizual stimul kimi, şəkli yoldaşları ilə paylaşmağı xahiş edin.
- İştirakçılara kursdan sonra yeni səliqəli iş masalarının və ya toplantıda şən əhvali-ruhiyyə ilə iştirak edən komandalarının fotoşəklini təqdimat zamanı öz tərəf müqabilinə göndərməyi tapşırın.





### *6. Elastik, döyməli adam*

- Kursun sonunda hər kəsə elastik adam oyuncağını verin (http://www.thetrainingshop.co.uk kimi yerlərdən əldə oluna bilər).
- İştirakçılara müəyyən suallara cavabları oyuncağın qeyd etdiyiniz bədən hissələrinə yazmağı tapşırın (Ən yaxşı nəticəni "Bic" tipli qələmlər verir).
- Baş hissəsində "Nə düşünürsünüz?" sualının cavabını yazın.
- Sinə hissəsində "Özünüzü necə hiss edirsiniz?" sualına cavab yazın.
- Ayaqlarda "Hansı dəstəyə ehtiyacınız var?" sualına cavab yazın.
- Pəncələrdə "Növbəti addımlarınız nə olacaq?" sualına cavab yazın.

Yazmaq üçün yer azdır, ona görə də təkcə açar sözlər yazılsa, kifayət edər.





### 7. *Mənə yolu izah edə bilərsinizmi?*

- İştirakçılardan kursu bitirib işə qayıtdıqdan sonra nə edəcəklərini göstərən çalışma planını hazırlamağı xahiş edin.
- Plana ad verməyi xahiş edin. Bu zaman yer və ya metro adı kimi adlardan istifadə edilə bilər.
- Onlara şəhər metro xəttinin xəritəsini göstərin.
- Flipçartda "İnkişaf xətti" adlı yeni metro xətti çəkin.
- İştirakçıların sayı qədər stansiya əlavə edin.
- İştirakçıların hər birindən flipçarta yaxınlaşıb planlarına qoyduqları adı stansiyalardan birinə yazmağı xahiş edin.
- Onlar hələ lövhənin yanında ikən qrupun qalan üzvlərinə stansiyanın adının nəyi ifadə etdiyinin izahını verməlidirlər.

**Variasiya**

Hər kəs öz metro xəttini çəkir və stansiyalar artıq çalışma planının reallaşdırılmasına aparan *addımlar* kimi çıxış edir.



## *8. Nəzərəçarpan çalışma*

*Bu qapanış çalışmai yalnız təlimin müəssisə daxilində keçirildiyi təqdirdə, tətbiq edilə bilər.*

- Kursun sonlarına doğru iştirakçılardan şöbələrindən 10 dəqiqə vaxtını ayıra biləcək bir nəfəri (yaxşı olar ki, öz rəhbərini) tapmağa göndərin.
- İştirakçılar öz rəhbərinə/iş yoldaşına kursdan nə öyrəndiklərini danışmalıdırlar.
- İştirakçılar həmçinin 10 dəqiqə içində növbəti 30 gün ərzində öyrəndiklərindən işdə necə istifadə edəcəkləri haqqında konkret bir planla sinif otağına qayıtmalı olduqlarını deməlidirlər.
- Onlar öz rəhbəri və ya iş yoldaşından plan hazırlamaqda yardım istəyirlər.
- İştirakçılar qayıtdıqda onları ikinəfərlik qruplara ayırın, planlarını müzakirə etmək üçün beş dəqiqə vaxt verin.
- Bütün qrup üzvləri ilə birlikdə qiymətləndirmə aparın.



# ƏHVALİ-RUHİYYƏ YOXLAMALARI

## ƏHVALİ-RUHİYYƏ YOXLAMALARI

# GİRİŞ



Əhvali-ruhiyyə yoxlamaları istənilən mərhələdə iştirakçıların kursun məzmunu ilə əlaqədar düşüncələrinin ölçülməsini ifadə etmək üçün təlimçilər tərəfindən qəbul olunmuş termindir. Əslində, əhvali-ruhiyyə yoxlamaları insanların kurs barədə hiss etdiklərini 1–10 bal şkalası ilə qiymətləndirməsini ehtiva edir. Bu yoxlamalar kursun məzmunu ilə xüsusi bağlılığa malik olmur. Təlimçilər, adətən, formal incəsənət əsərlərindən tutmuş, flipçarta smayliklərin yapışdırımasına qədər müxtəlif yanaşmaların kombinasiyasından istifadə edirlər.

Əhvali-ruhiyyə yoxlamaları ümumi qiymətləndirmənin bir hissəsi kimi, kurs müddətində Kirkpatrik qiymətləndirməsinin 1-ci səviyyəsinə uyğun rəy almağa imkan verir (beləliklə, sual verilərsə, cavablaya bilərsiniz!)

Kitabda kursun əvvəli və sonunda, yaxud kiçik sessiyaların açılış və ya qapanışı zamanı istifadə edilə biləcək bir neçə nümunəyə yer verilir.

# MƏNƏ BU QƏDƏR YAXIN DAYANMAYIN



**Məqsəd**
Kursun maraqlılıq və əyləncə səviyyəsinin qiymətləndirilməsi.

**Materiallar**
Fit

**Proses**

1. Açıq havaya çıxın və ya çox geniş bir otağa keçin.
2. Çalışmaya başlamaq üçün hər kəsdən sizdən eyni məsafədə dayanmağı xahiş edin.
3. "Kurs nə dərəcədə xoşunuza gəlir?" və/və ya "Kurs bitdikdən sonra fərqli nəyisə sınamaqda nə dərəcədə qərarlısınız?" kimi sualları qışqıraraq verin.
4. Hər kəsdən sizin fiti çaldığınız vaxt suala cavab vermək üçün zəruri hesab etdikləri qədər yaxınınıza gəlməyi xahiş edin. Məsələn, kursdan zövq alırlarsa, sizə yaxınlaşmalı, əks halda, uzaqlaşmalıdırlar.

**Variasiya**
Fitdən istifadə etməyin, səsinizi yüksəldin və "İndi" deyin. İnsanlar sizə nisbətdə öz mövqeyini seçikdən sonra onlardan xahiş edin ki, fərqli mövqedə dayanan kiməsə yaxınlaşıb aralarındakı fərqin nə olduğunu müzakirə etsinlər.
Xəbərdarlıq: Bu çalışmanı həyata keçirərkən mədəni fərqləri nəzərə alın, çünki bəzi insanlar yanınızda dayanmaqdan narahat ola bilərlər.

ƏHVALİ-RUHİYYƏ YOXLAMALARI



# KÖYNƏKDƏ ƏHVALİ-RUHİYYƏ

**Məqsəd**
İnsanların kursa münasibətinin necə olduğunun öyrənilməsi

**Materiallar**
Qısaqol köynək (ucuz, sadə, ağ köynək)
Qələmlər

**Proses**

1. Hər 3 nəfərə 1 köynək verin.
2. Köynəyi aşağıdakıları əks etdirən şəkil və ya simvollarla bəzəməyi xahiş edin:
   - kursla bağlı keçirdikləri hisslər;
   - mövzu haqqında mövcud bilikləri;
   - kursdan nə əldə etmək istədikləri.
3. Müzakirə aparın.

**Qapanış üçün variasiya**
Onlara nə öyrəndiklərini və məzmun haqqında nə düşündüklərini təsvir etməyi tapşırın.



## ƏHVALİ-RUHİYYƏ YOXLAMALARI

# HİSSLƏRİN ÖRT-BASDIR EDİLMƏSİ



**Məqsəd**
Kursun əvvəli və sonunda insanların yanaşma, bilik və bacarıqlarının nədən ibarət olduğunu öyrənmək üçün aydın vizual metod təmin edir.

**Materiallar**
Yapışqanlı lent, əvvəlcədən hazırlanmış yarlıqlar, işarələr və markerlər.

**Proses**

1. Döşəmədə yapışqanlı lentlə üç uzun zolaq çəkin.
2. Zolaqlara aşağıdakıların yazıldlığı yarlıqları yapışdırın:
   - *Burada olmaqdan məmnunan.*
   - *Çox şey bilirəm.*
   - *Bu sahədə bacarıqlarım çoxdur.*
3. Yapışqanlı lentin bir ucuna bu işarəni yerləşdirin: 10 = Çox.
4. Yapışqanlı lentin digər ucuna bu işarəni yerləşdirin: 1 = Az və ya heç nə.
5. İştirakçılardan kursun məzmunu baxımından özlərini harada hesab etdiklərini hər bir zolaqda işarə qoymaqla göstərməyi xahiş edin.

# 10 BALLIQ ŞKALA İLƏ QİYMƏT



**Məqsəd**
Gün davam etdikcə sessiyalar haqqında birbaşa rəy əldə edilməsi və ya çox sürətli qrup konsensusu qiymətləndirməsindən istifadə olunması

**Materiallar**
Hər iştirakçı üçün çox sayda sərt kağız/kart və ya silinə bilən yazı lövhəsi (uşaq mağazalarından əldə edilə bilər)

**Proses**

1. Hər iştirakçı üçün 1-dən 10-a qədər rəqəmlərin yazıldığı kartlar əvvəlcədən hazırlayın.
2. Sessiyadan əvvəl, sonra və ya sessiya zamanı hər hansı məqamda bu cümlələrdən istifadə edin: "İşlərin necə getdiyini 1-dən 10-a qədər bir rəqəmlə qiymətləndirin" və ya "Bu mövzu haqqında biliklərinizi 1-10 arası bir rəqəmlə qiymətləndirin".
3. İştirakçılar hisslərini ifadə etmək üçün müvafiq nömrəni qaldırıb göstərməlidirlər.

## ÖZ BUZQIRMA ÇALIŞMALARINIZI YAZIN

# MƏZMUNLA ƏLAQƏLİ



Əksər insanlar buzqırma çalışmalarına kurslarında boş vaxtları dolduracaq məşğələ kimi baxırlar. Biz isə hesab edirik ki, günün tərz və mahiyyətini ötürmək üçün onlardan bütün kurslarda istifadə olunmalıdır. Həmçinin düşünürük ki, xüsusilə kənardan dəvət edilmiş hər hansı profilli məsləhətçi olduğunuz zaman təlim iştirakçıları sizdən daha çox şey gözləyirlər.

Beləliklə, tamamilə özünüzəməxsus, kursun məzmunu ilə üst-üstə düşən buzqırma çalışmalarını yazmağın yolları budur! Buzqırma çalışmalarının məqsədi insanları danışmağa sövq etməkdir, lakin onlar həmçinin kursun məzmunu ilə əlaqəlidir, başqa sözlə, nöqsansız təsir bağışlayır. Buzqırma çalışmasından real məzmuna keçid zamanı naqolay bir fasilə yaranmır.

## ÖZ BUZQIRMA ÇALIŞMALARINIZI YAZIN

# ADDIM-ADDIM



Prosesi izah etməyə yardım üçün ilk kitabımız "*Buzqırma çalışmaları*" kitabında yer verilən çalışmalardən birini "*Kadrların inkişaf etdirilməsi*" çalışmanın düşünülməsi mərhələlərini nəzərdən keçirək.

1. Prosesə kouçinq kursumuza "bum!" effekti ilə başlamaq üçün yeni bir şeyə ehtiyac duyduğumuzu diktə edən xoşagəlməz bir hisslə başladıq.
2. Bütün kitablarımızı, resurslarımızı nəzərdən keçirdik, lakin hər cəhətdən münasib olanı tapa bilmədik (Bu məqam bizim üçün hər zaman vacibdir, çünki məyusluq çox pozitiv qüvvədir).
3. O qədər çox qəhvə içdik ki, nəhayət, hər şeyin mümkün göründüyü nöqtəyə çatdıq (Hətta binaları ölçə biləcəyinizə inanmağa başlamadan dayanmaq pis fikir deyil).
4. Özümüzə bu sualı verdik: "Bu kursun tam olaraq mahiyyəti nədir?" (Belə anlarda kursunuzun məqsədlərinə nəzər salmaq faydalı ola bilər), "İştirakçıların kursdan əxz etməli, ilk 60 dəqiqədə zehinlərinə yerləşdirilməli olduğu əsas mesajlar hansılardır?"



5. İştirakçlara çatdırmaq istədiyimiz bütün prinsip və əsas məqamları qeyd etdik.
   Siyahı təqribən belə idi:
   - "GROW" modeli;
   - məsuliyəti öz üzərinə götürmək;
   - rəhbərin rolu;
   - kouçinq alan şəxsin öhdəliyi;
   - fərqindəliyin formalaşdırılması.
6. Bunları birbaşa ötürmək üçün nəsə tapmağa çalışdıq. Ağlımıza heç nə gəlmədi, ona görə də təhtəlşüura bu məsələ üzərində çalışmaq imkanı yaratmaq üçün cəhdlərimizi dayandırdıq.
7. Pol bir bağa yollandı və orada onun diqqətini soğanaqlar cəlb etdi. Onda onun ağlına gəldi ki, kimsə onları əkməli, böyütməli və qeydlərinə qalmalıdır.
8. Hər şey o qədər bariz idi ki, geri qayıdıb yazmaq üçün səbirsizlənirdik.
9. Mühüm olan budur ki, mövzu ilə əylənəsən, ona parlaqlıq və yaddaqalanlıq qatasan, ən əsası da, buzqırma çalışmanı məzmunla əlaqələndirə bildiyiniz halda, kursun başlıca hissəsinə daha axıcı keçid etmək mümkündür. Əylənin!

ÖZ BUZQIRMA ÇALIŞMALARINIZI YAZIN

# PROSES İXTİSARLA



1. Kursunuzun məqsədlərinin nə olduğunu qərarlaşdırın.
2. Özünüzdən kurs müddətində iştirakçılara nəyi ötürmək istədiyinizi soruşun (bir və ya iki ən vacib prinsip).
3. Həddən çox qəhvə için.
4. Öz-özünüzə düşünün: "Necədir? Nəyə bənzəyir?"
5. Ağlınıza heç bir şey gəlməsə, nəsə düşünüb tapmağı təhtəlşüurunuza həvalə edin.
6. Tapdığınız ideya ilə bir az oynayın. Anlamlı olub-olmadığını yoxlamaq üçün insanlar üzərində sınayın.
7. İdeyadan yararlandığınız zaman insanlara çalışmanın kursun mahiyyətini simvolizə etdiyini (və ya metoforu olduğunu) başa salın. Bu, iştirakçılar axmaq bir şeyin edilməli olduğunu düşündükdə şikayət effektini azaldacaq.
8. Nə deyilməli və yerinə yetirilməli olduğuna dair aydın təlimatlar yazın və onlara əməl edin.
9. İnsanlar nəyisə sizdən fərqli şərh etdikdə yeni fikirlərə açıq olun. Təcrübəmizə əsasən, insanlar yenilikləri sınamağa gözlədiyinizdən daha hazır olurlar.

## Müəlliflər haqqında

**Alan İvans**



Alan insanlara özləri və bizneslərі üçün daha faydalı nəticələr əldə etmək istiqamətində sürətlə öyrənmək və inkişaf etməkdə yardım göstərən enerjili və yüksək təsir gücünə malik kommunikatordur. O, gərginlikdən uzaq, əyləncəli ab-hava yaradır, bir sıra unikal təqdimat, canlı fəaliyyət və faydalı müdaxilələr vasitəsilə insanları düşünməyə sövq edir. Alanın tədbirlərində iştirak nəticəsində qazanılan dərin biliklər və atılan addımlar onun "öyrənmə düsturu"nun uğuruna dəlalət edir. Alan 2003-cü ildən bəri "Made to Measure Training" adı altında müstəqil fəaliyyət göstərir. Onun göstərdiyi müxtəlif xidmətlərlə tanış olmaq üçün nəzərdən keçirin: www.madetomeasuretraining.co.uk

Alan ilə əlaqə üçün: alan@madetomeasuretraining.co.uk

**Pol Tizzard**



Pol 2001-ci ilin oktyabr ayında təsis etdiyi "Inspirit Training Ltd" şirkətinin direktorudur. O, ən çox kouçinq, vasitəçilik, təlimçilərin təlimi və komandaların inkişaf etdirilməsi kimi sevimli işləri ilə məşğul olduqda özünü xoşbəxt hiss edir. "Virgin Atlantic", "GSK", "CIPD", "UnumProvident" və "City and Guilds" onun əsas müştəriləri arasındadır.

Pol ilə əlaqə üçün: paul@flyingwithoutfear.info
Tel: 01737 841095